HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 30 (872) ▪ 9 avqust 2017

www.vergiler.az

Qiyməti: 60 qəp.

# Türkmənistan Prezidentinin respublikamıza rəsmi səfəri

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun avqustun 8-də rəsmi qarşılanma mərasimi olub. Mərasimdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü və hər iki ölkəni təmsil edən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov «Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə»ni imzalayıblar.

Tərəflər arasında «Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş»ə əlavə və dəyişikliklər edilməsi barədə Protokol, «Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum», «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Türkmənistanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş» və «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında Anlaşma Memorandumu» imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.



**Prezident İlham Əliyev qonaqları salamlayaraq deyib:**

- Bu gün apardığımız danışıqlar və imzalanmış sənədlər bir daha onu göstərir ki, Türkmənistan-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu əlaqələrin təməlində xalqlarımızın birliyi, dostluğu, qardaşlığı dayanır. Əsrlər boyu türkmən və Azərbaycan xalqları bir yerdə yaşamışlar, əməkdaşlıq, dostluq etmişlər. Dövlətlərarası münasibətlər bu möhkəm təməl üzərində qurulub. Bu il biz diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümünü qeyd edirik. Bu 25 il ərzində Azərbaycan və Türkmənistan böyük və uğurlu yol keçmişdir.

Bu gün imzalanan sənədlər arasında Birgə Bəyannamə xüsusi yer tutur. Bu, strateji tərəfdaşlıq haqqında imzalanan Bəyannamədir. Yəni, bu, əlaqələrin ən yüksək səviyyəsidir. Bu gün Türkmənistan və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu Bəyannamədə gələcək birgə fəaliyyətimizin demək olar ki, bütün istiqamətləri müəyyən edilib, həm siyasi, həm iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat, energetika, təhlükəsizlik məsələləri öz əksini tapıb. Bəyannamədə hər iki tərəf bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına qətiyyətli dəstək nümayiş etdirmişdir.

Bu gün danışıqların böyük hissəsi nəqliyyat məsələlərinə həsr edilib. Həm Türkmənistanda, həm Azərbaycanda yeni dəniz ticarət limanları tikilir və yaxın zamanlarda istifadəyə veriləcək. Bu, yük daşımalarının həcminin artırılmasına gətirib çıxaracaq. Eyni zamanda, bu gün müzakirə edilən mövzulardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun inşasıdır. Bu yol həm Türkmənistanın, həm Azərbaycanın tranzit imkanlarını böyük dərəcədə artıracaq.

Energetika sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar var. Bu gün imzalanan Memorandum gələcək fəaliyyətimiz üçün yaxşı əsas yaradır. Biz bütün sahələrdə, təbii ki, humanitar sahədə uğurla əməkdaşlıq edirik. İctimaiyyət onu da görür ki, bizim üçün tərcüməçi də lazım deyil. Biz cənab Prezidentlə söhbət əsnasında dedik ki, əgər bizim vətəndaşlar bir ay bir-birinə qonaq getsələr onda heç, ümumiyyətlə, tanış olmayan kəlmə də qalmaz. Yəni, bu oxşarlıq bizim böyük sərvətimizdir. Tarix, mədəniyyət, etnik köklər birdir və biz fəaliyyətimizi bu möhkəm təməl üzərində qururuq.

Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır. Biz bunu yüksək qiymətləndiririk. Mən xüsusilə Prezident Berdiməhəmmədovun fəaliyyətini bir daha qeyd etmək istərdim. Çünki bizim uğurlu əməkdaşlığımızın tarixi hadisəsi 2008-ci ildə baş vermişdir. Həmin ilin may ayında ilk dəfə olaraq Türkmənistan Prezidenti Azərbaycana səfər etmişdir və ondan bir neçə ay sonra - 2008-ci ilin noyabr ayında mən Türkmənistana səfər etmişdim. O səfərlər dönüş nöqtəsi idi. O səfərlərdən sonra geniş əməkdaşlıq formatı formalaşdı, yaradıldı və biz bu gün onun gözəl bəhrəsini görürük.

**Prezident Qurbanqulu Berdiməhəmmədov bəyanatında bildirmişdir:**

- Bu gün Türkmənistan ilə Azərbaycan arasında ən yüksək səviyyədə danışıqlar aparıldı. Həmin görüşlər zamanı ikitərəfli münasibətlərin durumu və perspektivləri, regional və beynəlxalq siyasət məsələləri müzakirə olundu, gələcək qarşılıqlı fəaliyyətimizin konkret istiqamətləri təyin edildi.

İki ölkə arasında ənənəvi olan qarşılıqlı inam və açıqlıq mühitində keçən danışıqların konstruktiv və məzmunlu xarakterini xüsusilə qeyd edirəm. Görüşlər zamanı bu gün bütün istiqamətlərdə - siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə aparılan ikitərəfli dialoqun indiki səviyyəsini yüksək dəyərləndirdik.

# Prezident İlham Əliyev Balakən, Zaqatala və Qax rayonlarında olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən rayonuna səfərə gəlib və elə həmin gün Balakən Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Açılış mərasimində bildirilib ki, Balakən çayı üzərində tikilmiş və ümumi gücü 1,5 meqavat olan bu stansiyanın təməlini Prezident İlham Əliyev 2010-cu ildə qoyub. Stansiya texniki göstəricilərinə görə olduqca səmərəli və müasirdir. Layihə çərçivəsində burada hündürlüyü 5,6 metr olan bənd tikilib. Bəndin maksimum eni 28, qaşının eni isə 4 metr təşkil edir. Burada saniyədə 63 kubmetr suburaxma qabiliyyəti olan sutullayıcı, saniyədə 23 kubmetr suburaxma qabiliyyəti olan suqəbuledici yaradılıb. Stansiyanın inşası zamanı uzunluğu 2 min metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan üç hidroturbin və hidrogenerator quraşdırılıb. Bundan başqa, ərazidə turbin zalı və stansiyanın idarəetmə binası da inşa edilib.

Qeyd edilib ki, ildə 10 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malik stansiya rayonun tələbatının 15 faizini, Balakən şəhərinin tələbatının isə 25-30 faizini ödəyəcək. Dövlət başçısı Balakən Su Elektrik Stansiyasını işə salıb.

Prezident İlham Əliyev Balakəndə inşa olunan Bayraq Muzeyinin, Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun, «ABAD Mərkəz»in də açılışlarında iştirak edib.

Azərbaycan Respublikası Prezidenti avqustun 3-də Zaqatala rayonunda da səfərdə olub, burada «Azərtütün» MMC-nin tütün emalı zavodunun fəaliyyəti ilə tanış olub, «Bəhmətli» elektrik yarımstansiyasının açılışında iştirak edib. Zaqatalada «AzRose» MMC-nin tikintisi davam edən qızılgül yağı istehsalı müəssisəsi ilə tanışlıq zamanı dövlətimizin başçısına müəssisə barədə məlumat verilərək bildirilib ki, 2016-cı ilin oktyabr-noyabr aylarında Türkiyədən və Bolqarıstandan dəvət olunmuş mütəxəssislərin tövsiyələri əsasında Zaqatala rayonunun Aşağı Tala kəndində gülçülüyün inkişaf etdirilməsi məqsədilə 107 hektar torpaq sahəsi müəyyənləşdirilib. Bolqarıstandan gətirilmiş tinglərdən 82 hektarda «Dəməşq qızılgülü» və 25 hektarda «Lavanda» gülü növləri üzrə gül plantasiyaları salınıb. Bu plantasiyalarda ilkin mərhələdə təxminən 600 ton gül ləçəyinin toplanması nəzərdə tutulub. «Dəməşq qızılgülü»ndən istehsal olunan yağ həm məhsuldarlığına, həm də keyfiyyətinə görə ən yaxşısı hesab olunur. Bolqarıstandan gətirilmiş «Lavanda» gülü növünün Fransa və Türkiyə «Lavanda» növlərindən yağlılıq dərəcəsi 20 faiz çoxdur. İllik gücü 1250 ton yaş gül, 250 litr qızılgül və 6 min litr «Lavanda» gül yağı olan müəssisədə istehsal edilən yağlar «AzRose» adı ilə bazarlara çıxarılacaq. Gələcəkdə isə həmin yağlardan istifadə etməklə müxtəlif ətriyyat, yuyucu, məişət və qida sənayesində istifadə olunan məhsulların istehsalı nəzərdə tutulur. Gül yağı istehsalı avadanlıqları Türkiyədən gətirilib. Müəssisədə 31 daimi və 600-ə yaxın mövsümi iş yeri açılacaq. Layihə gələcəkdə yerli əhalinin öz pay torpaqlarında qızılgül əkməklə bu sahənin daha da inkişaf etdirilməsinə şərait yaradacaq. Beləliklə, əhali yığdığı gül ləçəklərini müəssisəyə təhvil verməklə əlavə gəlir əldə edəcək.

Prezident İlham Əliyev avqustun 3-də Qax rayonuna səfərə gəlib, Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Ləli avtomobil yolunun, eləcə də Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qorağan-Qax hissəsinin, Bayraq Muzeyinin açılışında, 110/35/10 kV-luq yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi mərasimində iştirak edib. Prezident İlham Əliyev Qax rayonuna səfəri çərçivəsində Lələpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanış olub.

Rayona səfəri çərçivəsində dövlətimizin başçısı Qaxda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 180 yerlik körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsərək burada yaradılan şəraitlə tanış olub.

# Qaxda respublika müşavirəsi keçirilib

Avqustun 4-də Qaxda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. Müşavirəni dövlətimizin başçısı açaraq demişdir:

- Dünən mən Balakən, Zaqatala, Qax rayonlarında səfərdə olmuşam. Rayonlarda görülən işlərlə tanış olmuşam, əlavə tapşırıq vermişəm və bir daha görürəm ki, bu rayonlarda son illər ərzində çox sürətli inkişaf gedir.

Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur. Ancaq əlbəttə ki, burada əsas investisiya qoyuluşunun payı dövlətin üzərinə düşür. Son illərdə bu bölgəyə yolların, elektrik stansiyalarının tikintisi, qazlaşdırma, su təchizatı, suvarma məsələləri, sosial obyektlərin inşası ilə bağlı Azərbaycan büdcəsi hesabına çox böyük investisiyalar qoyulubdur. Məktəblər, xəstəxanalar, sosial obyektlər, idman kompleksləri, turizm obyektləri - bir sözlə, bu gün ölkəmizin şimal-qərb zonası öz sürətli inkişaf dövrünü yaşayır, perspektivləri də çox müsbətdir. Əminəm ki, verilən tapşırıqların yerinə yetirilməsi nəticəsində gələcək illərdə bu müsbət dinamika daha da güclənəcəkdir.

Bugünkü müşavirə bu bölgəyə xas olan ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına həsr edilib. Tütünçülük, baramaçılıq, fındıqçılıq bu bölgədə əsrlər boyu inkişaf etmişdir. Bu sahələrin ölkəmizdə çox böyük və zəngin ənənələri vardır. Burada mövcud olan torpaq şəraiti, torpağın münbitliyi, iqlim, coğrafi vəziyyət, xarici bazarlara yaxın olmağımız və qədim İpək Yolu üzərində yerləşməyimiz - bütün bunlar bu sahələrin inkişafına təkan vermişdir. Azərbaycan xalqı əsrlər boyu bu sahələrdə çalışırdı və yaxşı nəticələr əldə edirdi. Statistikaya baxdıqda görürük ki, tütünçülüyün, baramaçılığın, fındıqçılığın ən uğurlu və sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Nəinki bu sahələr, kənd təsərrüfatının pambıqçılıq, üzümçülük və digər sahələri də Heydər Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etmişdir. Biz bu ənənəvi sahələri bu gün bərpa edirik.

Bugünkü müşavirənin əsas məqsədi ondan ibarətdir ki, görülmüş işlərə yekun vuraq, - çünki son iki il ərzində bu sahələrin inkişafı üçün çox böyük işlər görülmüşdür, - eyni zamanda, gələcək fəaliyyətimiz üçün konkret tədbirlər planı hazırlayaq. Dövlət proqramları da qəbul ediləcəkdir ki, bu ənənəvi sahələr Azərbaycanda daha geniş vüsət alsın.

Bütövlükdə 2004-cü ildən bu günə qədər 1 milyon yarım iş yeri açılmışdır ki, bunun böyük əksəriyyəti daimi iş yeridir. Demək olar ki, hazırda Azərbaycanda işsizlik kimi bir çox ölkələri incidən, boğan sosial amil yoxdur. İşsizlik 5 faiz səviyyəsindədir. Bu gün işləmək istəyən özü üçün iş tapa bilər.

Son iki il ərzində xüsusilə kənd təsərrüfatı, sənaye sahələrində çox böyük işlərin görüldüyünü nəzərə alsaq, Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək.

O ki qaldı, bizim ümumi iqtisadi inkişaf perspektivlərimizə, mən bu perspektivləri yüksək qiymətləndirirəm. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Bu ilin altı ayının nəticələri bunu deməyə əsas verir. Qeyri-neft iqtisadiyyatımız, qeyri-neft sənayemiz artdı. İxrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb. Biz 6 ayda valyuta ehtiyatlarını nəinki qoruya bilmişik, görülmüş tədbirlər, düşünülmüş iqtisadi siyasət nəticəsində 3 milyard dollar əlavə valyuta gəlib. Azərbaycana birinci altı ayda 5 milyard investisiya qoyulub. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu ölkə iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 37-ci yerə layiq görüb. Bu, MDB məkanında birinci göstəricidir. Bu, sadəcə olaraq, görülmüş işlərin təzahürüdür. Makroiqtisadi sabitlik təmin edilib. Manatın məzənnəsi sabitdir. Dövlət xətti ilə ölkə iqtisadiyyatına sərmayə qoyulur. Özəl sektor da buna qoşulub. Qırxa yaxın aqropark yaradılır. Yaxın 1-2 il ərzində bu aqroparklarda istehsal olunacaq məhsul böyük bazarlara ixrac ediləcək, daxili ərzaq təhlükəsizliyi təmin ediləcəkdir.

BU NÖMRƏMİZDƏ

BÜDCƏ TAPŞIRIQLARI TAM HƏCMDƏ İCRA OLUNUB 2

BİZNES MÜHİTİNDƏ CANLANMA VAR 3

«MADE IN AZERBAIJAN» QEYRİ-NEFT İSTEHSALINI VƏ İXRACINI STİMULLAŞDIRIR 4

VERGİLƏRİ ÖDƏMƏK HƏR KƏSİN BORCUDUR 5

# Büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin ilk yeddi ayı ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 4 milyard 84 milyon 988,4 min manat məbləğində vəsait ödənilərək Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 100,1 faiz əməl olunub.

# Bütün müraciətlərə vaxtında baxılır

2017-ci ilin iyul ayında vergi orqanlarına 7930 - ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,6% çox müraciət daxil olub. 90,8%-i ərizə, 9%-i şikayət, 0,2%-i təkliflərdən ibarət olan müraciətlərin 36,1%-i kameral vergi yoxlamaları, 35,7%-i müxtəlif arayışların alınması, 8,8%-i vergi borcları, 3,4%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti ilə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb və onların 74,2 %-i müsbət həll olunub.

Ay ərzində vergi orqanlarında ümumilikdə 383 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə uyğun olaraq, iyul ayında vergilər naziri Fazil Məmmədov tərəfindən Ağsu rayonunda Ağsu, Qobustan, Şamaxı və Kürdəmir rayonlarından olan 33 vətəndaşı qəbul edilib.

# Yeni qaydalar təsdiq olunub

**«Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması qaydaları» Vergilər Nazirliyi tərəfindən təsdiq olunub.**

Qaydaların qəbul olunmasında başlıca məqsəd gəlirlərin uçotunun aparılması və Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulmuş fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan şəxslərin müəyyənləşdirilməsi üçün qeydiyyat kitabının tətbiqi, vergi ödəyiciləri ilə bağlı zəruri tədbirlərin görülməsidir. Qaydalar toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik edən və digər oxşar fəaliyyət göstərən - fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət göstərən şəxsləri əhatə edir.

Qaydalara əsasən, ictimai iaşə obyektləri yerləşdikləri ərazi üzrə vergi orqanları tərəfindən qeydiyyat kitabı ilə təmin ediləcəklər. Qeydiyyat kitabında müvafiq qeydlər hər bir müğənninin, ansamblın və Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan şəxslərin çıxışına başlamazdan əvvəl aparılmalıdır.

Təsərrüfat subyektlərində (obyektlərində) qeydiyyat kitabı tətbiq olunan vergi ödəyiciləri tərəfindən qeydiyyat kitabında qeyd olunan məlumatlar hər ay başa çatdıqdan sonra növbəti ayın 10-dək vergi orqanına təqdim edilməlidir. Vergi ödəyiciləri tərəfindən qeydiyyat kitabında qeyd olunan məlumatların vergi orqanına vaxtında təqdim edilməsi barədə vergi ödəyicilərinə xidmət strukturları tərəfindən mütəmadi olaraq maarifləndirmə və qanunvericiliyin tələbləri barədə məlumatlandırma aparılacaq. Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən aparılan məlumatlandırma-izahat tədbirlərindən sonra 10 iş gün ərzində məlumat forması təqdim edilmədikdə, həmin vergi ödəyiciləri barədə məlumatlar risk meyarı kimi qiymətləndirilərək adları operativ nəzarət funksiyalarını həyata keçirən strukturlara təqdim ediləcək ki, vergi nəzarəti tədbirləri zamanı nəzərə alınsın.

Qeydiyyat kitabındakı məlumatlara əsasən tərtib edilən məlumat forması vergi ödəyiciləri tərəfindən kağız daşıyıcılarda və ya Vergilər Nazirliyinin «İnternet vergi idarəsi»ndə real vaxt rejimində elektron qaydada tərtib edilib vergi orqanına təqdim edilə bilər.

Elektron formada təqdim edilmiş məlumatlar «Axtarış&Hesabat» informasiya sisteminin müvafiq hesabatlarına inteqrasiya olunacaq.

İctimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən müvafiq qaydada təqdim olunmuş məlumatlar vergi orqanlarının vergi ödəyicilərinin vergi potensialının müəyyən edilməsi istiqamətində təhlillərin aparılması ilə məşğul olan strukturu tərəfindən ayda 1 dəfədən az olmayaraq «Axtarış&Hesabat» informasiya sistemindən alınaraq təhlil olunacaq. Vergi Məcəlləsinin 220.10-cu maddəsinə nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan şəxslərin VÖEN-i olduğu halda, «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» alıb-almadığı yoxlanılacaq.

Müğənnilik fəaliyyəti ilə məşğul olan və ansambl (qrup) formasında musiqiçilik fəaliyyəti göstərən şəxslərin gəlirləri barədə məlumatlar həmin dövr üzrə təqdim edilmiş vergi bəyannamələrinin məlumatları ilə proqram təminatı tərəfindən avtomatik olaraq qarşılaşdırılacaq, kənarlaşmalar aşkar olunduqda kameral vergi yoxlaması ilə müvafiq tədbirlər görüləcək.

Vergi orqanları tərəfindən ildə 2 dəfədən az olmayaraq aşağıdakı istiqamətlərdə

məlumatlar təhlil edilərək riskli vergi ödəyicilərinin siyahısı müəyyənləşdiriləcək:

- İctimai iaşə obyekti olub, məlumat forması təqdim etməyən və ya təqdim edilmiş məlumatların düzgünlüyündə risk ehtimalı olan vergi ödəyiciləri;
- Müğənnilik və ansambl fəaliyyəti ilə məşğul olan şəxslər üzrə qarşılıqlı əlaqələrə, KİV-dən (reklamlar, anonslar) əldə edilmiş məlumatlar ilə onlar barədə təqdim edilmiş məlumatlar arasında kənarlaşma olan və ya barələrində ümumiyyətlə məlumat olmayan şəxslər;
- Eyni müğənni və ya ansambl (qrup) barədə ayrı-ayrı vergi ödəyiciləri tərəfindən fərqli məlumatların təqdim edilməsi üzrə;
- Baza məlumatlarına əsasən fəaliyyəti aktiv olan, lakin barəsində məlumat forması təqdim edilməyən müğənnilər və ansambllar;
- Təqdim etdikləri məlumat forması ilə həmin dövr üzrə vergi bəyannamələri arasında kənarlaşma ehtimal olunan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər;
- Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri üzrə vergi orqanında uçota alınan, lakin təqdim edilmiş məlumatlara əsasən barələrində məlumat olmayan və «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almayan vergi ödəyiciləri.

**A. NƏBİYEVA**

# Sabit vergi ödəyicilərinin vergi öhdəlikləri

Vergi Məcəlləsinə 2017-ci ilin əvvəlindən edilən dəyişikliyə əsasən, yanvarın 1-dən etibarən toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (foto-studiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu və s. fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği müəyyən edilib.

Fiziki şəxs yuxarıda qeyd olunan fəaliyyətə başlayanadək, vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Bunun üçün vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, yaxud vergi orqanına getmədən internet vasitəsilə elektron qaydada müraciət etməklə həmin qəbzi əldə edə bilərlər. Sabit vergi - fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləğidir. Bu vergi növünün tətbiqi ilə bağlı Vergi Məcəlləsinə 16.1.7-1-ci, 58.12-ci, 218.4.4- cü, 220.10-cu, 220.11-ci və 221.8-ci maddələr əlavə edilmişdir. Vergilər Nazirliyi tərəfindən müəyyən edilən qəbzin formasında seriya və nömrə, fiziki şəxsin VÖEN-i, qəbzin verildiyi tarix, vergi ödəyicisi olan fiziki şəxsin adı, atasının adı və soyadı, fəaliyyətin adı və həyata keçirildiyi ərazi, ödənilmiş verginin məbləği və qəbzin qüvvədəolma müddəti əks etdirilir.

Bu fəaliyyət üzrə vergi orqanına bəyannamə təqdim edilmir. Ödənilmiş vergi qəbzin qüvvədə olduğu müddətdə fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti dövrlərin vergiləri ilə əvəzləşdirilmir. Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda, qəbzi hər bir fəaliyyət növü üçün ayrılıqda almalıdırlar.



İşçi cəlb etmədən fərdi qaydada məşğul olan fiziki şəxs «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan fəaliyyət göstərərsə, maliyyə sanksiyası ilə üzləşə bilər. Qanunvericiliyə görə, təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, iki və daha çox hallarda isə 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi öhdəliklərini müvafiq qəbz əldə etməklə sadələşdirilmiş qaydada yerinə yetirən fiziki şəxslər nağd pul hesablaşmalarının aparılması zamanı, nəzarət-kassa aparatı çeki istisna olmaqla, alıcıya ciddi hesabat blankı olan qəbz də təqdim etməlidirlər. Qanunvericiliklə müəyyən edilmiş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılması, alıcıya qəbzin verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərməklə verilməsinə görə də maliyyə sanksiyası tətbiq oluna bilər. Təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə 800 manat, üç və daha çox hallarda isə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Yuxarıda sadalanan fəaliyyət növləri ilə məşğul olan şəxslərin maliyyə sanksiyaları ilə üzləşməməsi məqsədilə Vergilər Nazirliyi maarifləndirmə tədbirlərinə xüsusi önəm verir. Bu ilin 6 ayı ərzində Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti tərəfindən sabit verginin ödəyicilərinin fəaliyyət növləri, tələb olunan sənədlər, zonalar üzrə ödənilməli olan vergi məbləğləri, izahlı materiallar və digər zəruri məlumatları özündə əks etdirən sənədlər toplusu hazırlanmışdır. Eyni zamanda, nazirliyin rəsmi internet saytında ayrıca bölmənin yaradılması və zəruri məlumatların həmin bölmədə yerləşdirilməsi təmin edilmişdir. Bununla yanaşı, «Sabit vergi» adlı yeni buklet hazırlanaraq nəşr etdirilmişdir.

Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan şəxslərin «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaq məqsədilə vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etdikdə təmsilçi tərəfindən müvafiq ərizənin qeydiyyata alınması və emalı, müəyyən olunmuş vergi məbləğinin ödənilməsinin yoxlanılması və qəbzin hazırlanması, möhürlə təsdiq edilərək vergi ödəyicisinə təqdim edilməsi prosesini nəzərdə tutan proqram təminatı istifadəyə verilmişdir.

2017-ci ilin ilk yarısında 1595 vergi ödəyicisi tərəfindən 3035 «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» alınmışdır. Ümumilikdə bütün vergi orqanları üzrə bu göstərici aşağı olmaqla real vəziyyəti əks etdirmədiyindən, «Vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəyəcək vergi ödəyiciləri ilə əlaqədar görüləcək işlər barədə Tədbirlər Planı»na uyğun olaraq, müvafiq işlər həyata keçirilir. Tədbirlər Planının icrası ilə əlaqədar qəbzin qüvvədə olma müddətinin bitməsinə baxmayaraq, həmin fəaliyyətlə məşğul olan və qəbz almayan 306 vergi ödəyicisi müəyyən edilərək onların mobil telefonlarına müvafiq mətndə SMS-lər göndərilmiş və digər məlumatlandırma işləri aparılmışdır. Nəticədə həmin vergi ödəyicilərindən 119-nun qəbz alması təmin edilmişdir.

**2017-ci ilin ilk yarısında 1595 vergi ödəyicisi tərəfindən 3035 «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» alınmışdır**

**AYTƏN**

# Nağd pul hesablaşmalarının aparılması

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul olunmasında məqsəd ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətlədirməkdir. Bununla belə, kiçik vergi ödəyiciləri, xırda bizneslə məşğul olan sahibkarlar, kənd adamları və s. hesablaşma əməliyyatlarını həm nağd, həm də nağdsız formalarda apara bilərlər. Vergi Məcəlləsinə əsasən aşağıdakı fəaliyyət növləri istisna olmaqla, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı (NKA) vasitəsi ilə həyata keçirmək vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir:

- ♦ qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- ♦ kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- ♦ səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
- ♦ qiymətli kağızların və lotereya biletlərinin satışı;
- ♦ elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti.

Nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blankları təqdim edilməli və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatlar əks etdirilməlidir.

İstismar zamanı NKA-nın plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi ödəyicisi vergi orqanlarına dərhal məlumat verməli, NKA-dan istifadəni müvəqqəti dayandırmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatını «NKA-nın işləmədiyi dövrdə aparılan əməliyyatların uçotu kitabı»nda aparmalıdır.

Topdansatış fəaliyyəti istisna olmaqla nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə aşağıdakı məsuliyyət tədbirləri tətbiq edilir:

- ♦ təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə 2000 manat;
- ♦ təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə 4000 manat;
- ♦ təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat, vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə 6000 manat məbləğində.

Pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin) alıcılarına onların tələbinə əsasən NKA-nın çeki ilə yanaşı, qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura təqdim edilməlidir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur. Qeyd edək ki, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər - 2017-ci il aprelin 1-dən elektron qaimə-faktura təqdim edirlər. Digər vergi ödəyicilərinə isə bu qayda 2018-ci il yanvarın 1-dən tətbiq ediləcək.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət edə bilərsiniz.

# 2018-ci ildə Azərbaycan iqtisadiyyatında artım gözlənilir

*«Standard&Poor's» (S&P) beynəlxalq reytinq agentliyi 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul istehsalının (ÜDM) artımının 3,5% səviyyəsində olacağını proqnozlaşdırır.*

Hesabatda qeyd edilirki, bu il Azərbaycan iqtisadiyyatı ucuz neft dövrünə adaptasiyanı davam etdirib. 2016-cı ildə Azərbaycanda ÜDM 3% azaldığı halda, bu il azalma 1% təşkil edəcək. Agentlik iqtisadiyyata manatın devalvasiyasının və dövlət xərclərinin azalmasının mənfi təsir etdiyini göstərib.

S&P mütəxəssislərinin rəyinə əsasən, 2018-ci ildə Azərbaycan iqtisadiyyatında artım bərpa olunacaq. ÜDM gələn il 2% (nominal həcm 44 mlrd. dollar), 2019-cu ildə 3,5% (47 mlrd. dollar), 2020-ci ildə 3,5% (48 mlrd. dollar) artacaq: «Proqnozların bu səviyyədə olması «Şahdəniz-2» qaz yatağından nəqlin başlanmasına əsaslanır. Bununla yanaşı, qeyri-neft sektoruna investisiyaların yatırılması iqtisadiyyata inamın artması və inflyasiyanın səngiməsi istehsalın artmasına səbəb olacaq».

Agentliyin hesabatında göstərilir ki, 2017-2020-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo qorunacaq, 2017-ci ildə ÜDM-in 12,3%, 2018-ci ildə 12,7%, 2019-cu ildə 14,3%, 2020-ci ildə 14,8%-ə bərabər olacaq.

S&P hesab edir ki, bu il dövlət büdcəsinin icrasında yaranan kəsir ÜDM-in 3,2%-ni təşkil edəcək. Bununla belə, gələn il dövlət büdcəsinin profisiti ÜDM-in 1%-ə bərabər olacaq. 2019-2020-ci illərdə isə dövlət büdcəsinin icrası zamanı yaranacaq profisit ÜDM-in 2,5%-ni təşkil edəcək.

İqtisadçı ekspert Vüqar Bayramov bildirmişdir ki, istər Beynəlxalq Valyuta Fondunun, istərsə də digər beynəlxalq qurumların proqnozlarında Azərbaycan iqtisadiyyatında artımın qeydə alınacağı xüsusi vurğulanır. Bu ildən iqtisadiyyatın sabitləşəcəyi gözlənilir və 2018-ci ilin əvvəllərindən Azərbaycanda iqtisadi artım bərpa ediləcək. İqtisadi artımın yenidən bərpa edilməsi sadəcə neftin qiymətinin sabitləşməsi ilə deyil, həmçinin ümumi daxili məhsulda qeyri-neft sektorunun payının yüksəlməsi ilə bağlıdır. Bu ilin geridə qalan aylarının iqtisadi nəticəsi təsdiq edir ki, inkişafın neft sənayesindən qeyri-neft sektoruna mərhələli transferi başlayıb.

**Qeyri-neft sektoruna investisiyaların yatırılması iqtisadiyyata inamın artması və inflyasiyanın səngiməsi istehsalın artmasına səbəb olacaq**

S&P-nin proqnozuna əsasən, Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmi 2017-ci ildə 5,5%, 2018-ci ildə 3,5%, 2019-cu ildə 2,5%, 2020-ci ildə isə 2,5% artacaq.

S&P mütəxəssislərinin proqnozuna görə, Azərbaycanda 2016-cı ildə 12,4% olan orta illik inflyasiya bu il 9%-dək geriləyəcək, 2018-2020-ci illərdə də inflyasiyanın səngiməsi tendensiyası davam edəcək. İllik inflyasiyanın 2018-ci ildə 7%, 2019-2020-ci illərdə isə 5% təşkil edəcəyi proqnozlaşdırılır.

**Fəxriyyə İKRAMQIZI**

# Biznes mühitində canlanma var

**Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, 2017-ci ilin birinci yarısında Azərbaycanda iqtisadiyyatın bütün sahələri üzrə yeni yaradılaraq qeydiyyata alınmış hüquqi və fiziki şəxslərin sayında artım olub. Bu ilin yanvar-iyun ayları üzrə qeydiyyatdan keçən hüquqi şəxslərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 5% çoxdur və ölkə üzrə qeydə alınmış hüquqi şəxslərin sayı 119 mini keçib. Bunlardan 100.376-sı (bütün hüquqi şəxslərin 89,2%-i) özəl müəssisələrin, 6.598-i xarici, 2.064-ü birgə müəssisələrin, 10.521-i (9,3%) dövlət müəssisələrinin, 1.701-i isə (1,5%) bələdiyyələrin payına düşür.**

İlk 6 ayda topdan və pərakəndə satış, avtomobil və digər məişət mallarının təmiri ilə məşğul olan 29.577 (artım 6,1%); maliyyə və sığorta fəaliyyəti ilə məşğul olan 1.601 (artım 2,2%); daşınmaz əmlakla bağlı əməliyyatlarla məşğul olan 1.451(artım 11,3%); inzibati və yardımçı xidmətlərlə məşğul olan 4.406(artım 8,7%); rabitə və informasiya sahəsində fəaliyyət göstərən 2.804 (artım 4,2%); istirahətin təşkili və əyləncə sahəsində fəaliyyətlə məşğul olan 1743 (artım 4,7%) hüquqi şəxs qeydiyyata alınıb.

DSK-nın məlumatına görə, ilin ilk yarısında fiziki şəxslərin sayı əvvəlki ilin müvafiq dövrü ilə nisbətdə 12,5% artıb. Hazırda ölkəmizdə 770 min fiziki şəxs hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Onların böyük bir qismi kənd təsərrüfatı sahəsində (228,489) çalışır, emal sənayesi sahəsində isə 16.808, topdan və pərakəndə satış, avtomobil və məişət mallarının təmiri sahəsində 198.884 min fiziki şəxs fəaliyyət göstərir.

Bundan əlavə, maliyyə və sığorta fəaliyyəti ilə 1.606, daşınmaz əmlakla bağlı əməliyyatlarla 11.801, inzibati və yardımçı xidmətlər sahəsində 2.748, tikinti fəaliyyəti ilə 5.772, turistlərin yerləşdirilməsi və ictimai iaşə ilə 36.573, nəqliyyat və anbar təsərrüfatı ilə 79.686, istirahətin təşkili və əyləncə sahəsində fəaliyyətlə 10.379, digər sahələrdə isə 190 minə yaxın fiziki şəxs çalışır.

***Səmərəli vergi rejimi sahibkarlığı stimullaşdırır***

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı qanunun icrası sahibkarlıq subyektlərinin sayının artmasına səbəb olub. Vergilər Nazirliyinin məlumatına görə, 2017-ci ilin yanvar-iyun ayları ərzində qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 103.968 olub ki, bu da ötən ilin müvafiq dövründəki göstəricidən iki dəfə çoxdur.

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, biznesə başlama prosedurlarının əsaslı şəkildə sadələşdirilməsi, vergi güzəşt və azadolmaların tətbiqi, sahibkarlığın və ixracın təşviqi, vergi yükünün aşağı salınması sayəsində biznes mühitində canlanma müşahidə olunur.

Vergilər Nazirliyi tərəfindən hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi də biznes mühitinə müsbət təsir göstərib, yeni sahibkarlıq subyektlərinin yaradılmasına imkan verib. Fiziki şəxslərin vergi uçotu və hüquqi şəxslərin dövlət qeydiyyatının Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırır. Sahibkarlıq subyektlərinin qeydiyyatı sahəsində mühüm yeniliklərdən biri olan «e-qeydiyyat» sisteminin tətbiqi hüquqi şəxslərə və fərdi sahibkarlara vergi orqanına getmədən internet vasitəsilə vergi uçotuna dayanma imkanı yaradır. Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan 3 məcburi prosedurdan keçmək zərurəti tamamilə aradan qaldırılıb, ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddət 1 günədək azalıb.

Ölkədə biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt isə 30 gündən 2 günə endirilib. Fərdi sahibkarlar 2011-ci ildən, yerli investisiyalı müəssisələr isə 2012-ci ildən etibarən elektron qaydada qeydiyyata alınır.

***Xarici iş adamları yeni müəssisələr yaradır***

Son dövrlərdə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əsas məqsədlərindən biri də investisiyaların təşviqi və əlverişli biznes mühitinin formalaşdırılmasıdır. Hazırda Vergi Məcəlləsində 104 azadolma və 25 güzəşt növü qüvvədədir.

Vergi islahatlarının əsas istiqamətlərindən biri xarici investorların ölkəyə cəlb olunmasını əhatə edir. Azərbaycanın beynəlxalq müqavilələrə qoşulması investisiyaların təşviqi və qorunması, ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkəyə yönəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Görülən tədbirlər nəticəsiz qalmır: regionlarda yerli sərmayəçilərlə yanaşı, xarici iş adamlarının da sayı artıb, bölgələrə sərmayə qoyuluşları çoxalıb. Hazırda Azərbaycanda 7000-dən artıq xarici investisiyalı müəssisə fəaliyyət göstərir ki, onların böyük qismi bölgələrdədir.

***Regionlarda iqtisadi layihələrin icrası genişlənir***

Ölkəmizin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri regionların sosial-iqtisadi imkanlarından hərtərəfli şəkildə istifadə olunması, bölgələrdə sahibkarlığa dövlət qayğısının artırılması, iş adamlarının fəaliyyəti üçün şərait yaradılması və sərmayələrin cəlb edilməsi, yeni iş yerlərinin açılması kimi vəzifələri əhatə edir.

2014-2018-ci illəri əhatə edən Dövlət Proqramının və digər mühüm qanunvericilik sənədlərinin icrası sayəsində regionlarda istifadə olunmamış iqtisadi güc səfərbər edilərək hərəkətə gətirilir, yeni yaradılan istehsal müəssisələrinin, xüsusilə də sənaye obyektlərinin və sahibkarlıq subyektlərinin fəaliyyətinin artması üçün əlverişli vergi-gömrük siyasəti və müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirilir. Strateji hədəflərdən biri regionlarda (Gəncə, Mingəçevir, Daşkəsən və s.) sənaye texnoparklarının və sənaye məhəllələrinin, aqroparkların, innovasiya zonalarının, biznes inkubatorlarının, iri fermer təsərrüfatlarının yaradılmasıdır. Həmin layihələrin icrasının sürətləndirilməsinə təkan vermək üçün təkanverici tədbir kimi vergi güzəştləri tətbiq olunur. Bununla yanaşı, bölgələrdə çalışan sahibkarlar üçün vergi yükünün optimallaşdırılması məqsədilə bir sıra mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılıb, bir sıra vergi güzəştləri tətbiq olunub ki, burada əsas məqsəd biznes mühitini canlandırmaqla ölkənin iqtisadi yüksəlişinin yeni mərhələsinə keçidi təmin etməkdir.

**Elbrus CƏFƏRLİ**

# Azad iqtisadi zonaların təşkili sahəsində beynəlxalq təcrübə mübadiləsi



«Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 17 mart 2016-cı il tarixli Sərəncamı ilə azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilmiş və ölkə başçısının «Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında» 31 may 2017-ci il tarixli Sərəncamı ilə Vergilər Nazirliyinin nümayəndəsinin də daxil olduğu İşçi Qrup yaradılmışdır. İyul ayının 12-dən 14-dək azad iqtisadi zonaların təşkili, fəaliyyəti və idarə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə İşçi Qrupun iclaslarında iştirak edən ekspertlər Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) səfərdə olmuşdur.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva Dubay şəhərində «Azad iqtisadi zonaların təşkili, fəaliyyəti və idarə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi»nə həsr olunmuş iclasda iştirak edib. İclasın Dubayda təşkil edilməsi təsadüfi deyildir - bu şəhərdə 23 azad iqtisadi zona (BƏƏ-də 37) fəaliyyət göstərir.

Jebel Ali ölkənin ən böyük ticarət dövriyyəsi və ticarət limanı olan azad ticarət zonasıdır. Birləşmiş Ərəb Əmirliyi üzrə ÜDM-in 7%-i, Dubay üzrə isə 20%-i Jebel Alinin payına düşür.

Bu zonanın ərazisində fəaliyyət göstərən şəxslər vergi administrasiyasında vergi ödəyicisi kimi uçota alınmır və bəyannamə vermirlər. Zonanın rezidentləri ildə bir dəfə beynəlxalq audit şirkəti tərəfindən tərtib edilən audit hesabatını səlahiyyətli orqana təqdim edirlər.

Jebel Ali azad iqtisadi zonasının daxilində rezidentlərin malın (işin, xidmətin) təqdim edilməsindən gəlirləri gəlir (mənfəət) vergisindən və ƏDV-dən, habelə rezidentlərin təsisçilərinə ödənilən dividendlər vergidən azaddır. Bundan əlavə, zona daxilində işçilərə ödənilən əmək haqlarından hər hansı vergi tutulmur. İdxal və ixrac olunan mallar gömrük rüsumları və vergilərdən azaddır.

# Ölkəmizin strateji valyuta ehtiyatları xarici dövlət borcunu 3,6 dəfə üstələyir

Mərkəzi Bankın bu ilin birinci yarısını əhatə edən «Pul siyasəti» icmalının növbəti buraxılışı nəşr edilib. İcmalda qeyd olunur ki, tədiyyə balansının yaxşılaşması nəticəsində 2017-ci ilin ilk yarısında makroiqtisadi sabitliyin təmin olunması istiqamətində müsbət meyllər formalaşmış və güclənmişdir. Valyuta bazarının tarazlaşmağa başlaması şəraitində inflyasiyanın yüksəlməsi gözləntiləri səngimiş, inflyasiyanın aylıq tempi yanvar ayından aşağı düşməyə başlamışdır.

**Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər**

2017-ci ilin ilk yarısında Azərbaycanın xarici iqtisadi mövqeyi - qeyri-neft ixracının genişləndirilməsi və idxalın əvəzlənməsi istiqamətində görülmüş tədbirlər, eləcə də dünya iqtisadiyyatında və əsas ticarət tərəfdaşlarında baş verən proseslərin təsiri altında formalaşmışdır. Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2017-ci ilin ilk altı ayında Azərbaycanın xarici ticarət dövriyyəsi 8,7 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 5,3 milyardı ixracın, 3,4 milyardı isə idxalın payına düşmüşdür. Xarici ticarət balansında 1,9 milyard ABŞ dolları məbləğində müsbət saldo əmələ gəlmişdir. Dövr ərzində 171 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

Ticarət dövriyyəsinin 37%-i Avropa İttifaqı (Aİ) ölkələrinin payına düşmüşdür. Aİ ilə ticarət əlaqələrinin 41%-i İtaliya, 11%-i Almaniya, 8%-i Portuqaliya, 6%-i isə Çexiya ilə həyata keçirilmişdir. MDB ölkələrinin ümumi ticarət dövriyyəsində xüsusi çəkisi 17% olmuşdur. Bu istiqamətdə ticarət dövriyyəsinin 65%-i Rusiyanın, 20%-i Ukraynanın payına düşmüşdür. Ticarət əlaqələrinin 32%-i digər ölkələrlə saxlanılmışdır. Bu ölkələr qrupunda əsas tərəfdaşlar Türkiyə (43%), Çin (24%), Gürcüstan (10%), İsrail (8%) və Hindistandır (8%).

İxracda əsas tərəfdaşlar İtaliya (23,1%), Türkiyə (11,7%), Çin (6,5%), Rusiya (5,5%), Portuqaliya (5%), Gürcüstan (4,5%) kimi ölkələr olmuşdur.

Ölkədə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala investisiya axınları davam etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2017-ci ilin 6 ayında 4,3 milyard manat ekvivalentində olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların 60%-ni təşkil edir. Əsas kapitala yönəldilmiş xarici investisiyaların artım tempi 0,6% təşkil etmişdir.




Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Yaponiya, Malaziya, İran və İsveçrənin sərmayədarlarına məxsus olmuşdur.

Ölkənin strateji valyuta ehtiyatlarının zəruri həcmdə qorunması təmin edilmişdir. 2017-ci ilin 6 ayının sonuna ölkənin strateji valyuta ehtiyatları 40,5 milyard ABŞ dolları təşkil edərək 33 aylıq mal və xidmət idxalına kifayət etmiş və xarici dövlət borcunu 3,6 dəfə üstələmişdir.

**Makroiqtisadi proseslər**

2017-ci ilin ilk yarısında daxili tələb əvvəlki illərdə olduğu kimi iqtisadi artım dinamikasının əsas komponenti olmuşdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, son istehlak xərcləri ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 20,8% artmışdır. İstehlak xərclərinin real artım tempi isə 6,1% təşkil etmişdir. Son istehlak xərclərinin nominal həcmi 20.3 milyard manat olmuşdur ki, bu da ev təsərrüfatlarının gəlirlərinin 86,3%-ni təşkil edir. Hər bir istehlakçı orta hesabla ayda 352 manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 44,7 manat çox əmtəə almış və pullu xidmətlərdən istifadə etmişdir.

Əhalinin nominal gəlirlərinin artımı istehlak tələbini dəstəkləyən əsas amil olmuşdur. 2017-ci ilin yanvar-iyun aylarında əhalinin pul gəlirləri nominal olaraq 7,3% artmışdır. Əhalinin adambaşına düşən pul gəlirlərinin artımı isə 6,2% təşkil etmişdir.

Ölkə iqtisadiyyatına investisiya qoyuluşu 7,1 milyard manat təşkil etmişdir. Dövr ərzində neft sektoruna 4,3 milyard manat, qeyri-neft sektoruna 2,8 milyard manat həcmində investisiyalar yönəldilmişdir. Cəmi investisiya qoyuluşlarının 30,2%-i dövlət, 69,8%-i özəl sektorun payına düşmüşdür. Əsas kapitala yönəldilmiş vəsaitin 40%-i daxili mənbələr, 60%-i isə xarici mənbələr hesabına formalaşmışdır.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri (70,3%) üstünlük təşkil etmişdir.

**Məşğulluq**

Ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 44,2 min nəfər təşkil etmişdir. Muzdla çalışan işçilərin sayı 2017-ci ilin 1 iyun tarixinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6% artaraq 1 milyon 525,2 min nəfər olmuşdur. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,8%-i məhsul istehsalı sahələrində, o cümlədən 7,1%-i tikinti, 6,6%-i emal sənayesi, 2,2%-i mədənçıxarma sənayesində, 3,1%-i də kənd təsərrüfatında fəaliyyət göstərmişlər.

**İnflyasiya**

2017-ci ilin birinci yarısında aylıq inflyasiya tempinin azalması müşahidə edilmiş, inflyasiyanın yüksəlməsi gözləntiləri səngimişdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən ilin birinci yarısında orta illik inflyasiya 13,9% təşkil etmişdir. İstehlak Qiymətləri İndeksinin komponentləri olan ərzaq qiymətləri orta illik 18,1%, qeyri-ərzaq qiymətləri 12,4%, xidmətlər isə 9,4% dəyişmişdir.

Orta illik inflyasiyanın 7,6% bəndi ərzaq, 3,3% bəndi qeyri-ərzaq, 3% bəndi isə xidmətlərin payına düşür. Aylıq əsasda inflyasiya azalma meyili nümayiş etdirmişdir. Belə ki, aylıq faktiki inflyasiya yanvarda 2,3% olduğu halda, fevral və mart aylarında 1,6%, apreldə və mayda isə cəmi 0,2% təşkil etmişdir. İyundan artıq mövsümi deflyasiya müşahidə edilir. İyunda 1%-lik deflyasiya qeydə alınmışdır. Regionlar üzrə aylıq qiymət dəyişimi göstəricilərinə nəzər yetirsək, iyun ayı ərzində bütün regionlarda deflyasiya olduğunu görərik.




İlin ilk yarısı ərzində inflyasiyaya nominal effektiv məzənnə, gözlənti və inersiya, əsas partnyor ölkələrdə gedən inflyasiya prosesləri, inzibati qiymətlər, mövsümi və s. amillər təsir göstərmişdir.

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 2017-ci ilin yanvar-iyun aylarında 13,2% təşkil etmişdir.

**Pul təklifi**

İnflyasiya amillərini nəzərə alaraq pul bazasının artım kanalları idarəetməyə götürülmüş, pul bazası pul siyasətinin başlıca əməliyyat lövbəri olmuşdur. Mərkəzi Bank özünün likvidlik əməliyyatlarının aparılması zamanı pul bazası üzrə hədəfə əsaslanmışdır. Əsas məqsəd pul təklifi kanallarını tənzimləmək və bu yolla inflyasiyanın yüksəlməsinin qarşısını almaq olmuşdur. Monetar şərait ikinci rübdə nisbətən yumşalsa da, ümumilikdə neytral olmuşdur. İqtisadiyyatın, o cümlədən fiskal sektorun pula olan tələbinə adekvat olaraq pul siyasətinin başlıca əməliyyat hədəfini təşkil edən pul bazası 5,3% artmış və 8 milyard 274,5 milyon manat təşkil etmişdir. Bu, ödəniş sisteminin sabitliyini təmin etməklə bərabər, iqtisadiyyatın kreditləşdirilməsi imkanlarını genişləndirən amildir. Dövriyyədə olan nağd pul kütləsi 5,6%, manatla müxbir hesablar isə 1,6% artmışdır. Altı ayın sonuna manatla pul multiplikatoru 1,38 təşkil etmişdir.

İlk yarımillikdə manatla geniş pul kütləsi (M2) 1% azalaraq dövrün sonuna 11 milyard 435,9 milyon manat təşkil etmişdir. Manatla pul kütləsinin (M2) strukturunda nağd pul kütləsi, fiziki şəxslərin əmanətləri və hüquqi şəxslərin depozitləri fərqli dinamika nümayiş etdirmişlər. Altı ay ərzində nağd pul kütləsi 6,2%, fiziki şəxslərin manat əmanətləri 21,2% artmış, hüquqi şəxslərin manat depozitləri isə 21,9% azalmışdır.

**İnvestisiya mənbələri, %-lə**

| | 2016 (6 ay) | 2017 (6 ay) |
|---|---|---|
| Müəssisə və təşkilatların vəsaitləri | 75,9 | 70,3 |
| Bank kreditləri | 9,1 | 11,9 |
| Büdcə vəsaitləri | 10,8 | 11,4 |
| Büdcədənkənar fondların vəsaitləri | 0,9 | 1,3 |
| Əhalinin şəxsi vəsaiti | 3,2 | 4,6 |
| Sair vəsaitlər | 0,1 | 0,5 |

**A.NƏBİYEVA**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV-nin əvəzləşdirilməsi

***Quş ətinin idxalı zamanı büdcəyə ödənilmiş əlavə dəyər vergisi (ƏDV) məbləğləri hansı qaydada əvəzləşdirilir?***

Vergi Məcəlləsinin 164.1.37-ci maddəsinə əsasən ölkə ərazisində quş ətinin satışı 2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azaddır.

Vergi Məcəlləsinin 175.6-cı maddəsinə əsasən ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.

**Qeyd olunanlara əsasən:**

Quş ətinin satışı ƏDV-dən azad olunduğundan idxal zamanı ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz




# Yerli özünüidarəetmənin inkişaf yolları araşdırılır

Bələdiyyələrin hüquqi vəziyyətini müəyyən edən «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında yerli özünüidarəetmə vətəndaşlara yerli əhəmiyyətli məsələləri qanun çərçivəsində, müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanı verir. Bələdiyyələrin statusunun əsasları ölkənin Konstitusiyası, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsilə həyata keçirir.

Konstitusiyamızın 144-cü maddəsində göstərilir ki, bələdiyyələr öz iclaslarında bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi, bələdiyyənin reqlamentinin, yerli büdcə və onun icrası haqqında hesabatların təsdiqi, bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi, yerli vergilərin və ödənişlərin müəyyənləşdirilməsi, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam verilməsi, yerli sosial müdafiə və sosial inkişaf proqramlarının, yerli iqtisadi inkişaf proqramlarının, yerli ekoloji proqramların qəbul və icra edilməsi kimi məsələləri həll etmək səlahiyyətinə malikdir.

Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Yerli vergilər və ödənişlər ilə bağlı bələdiyyə üzvləri 2/3 səs çoxluğu ilə qəbul edilir.

Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər. Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərin ödənilməsinə dövlət təminat verir.

Milli Məclisin Regional Məsələlər Komitəsinin üzvü Azər Badamov bildirmişdir ki, Prezident yanında Yerli özünüidarəetmənin inkişafı üzrə Şuranın yaradılması ölkə başçısının səlahiyyətinə aid məsələdir: «Əgər belə bir qurum təsis edilərsə, sözsüz ki, yerli özünüidarəetmə orqanları da öz işinə daha məsuliyyətlə yanaşar və bələdiyyələrin inkişafına öz təsirini göstərə bilər».

Millət vəkilinin sözlərinə görə, Azərbaycanda yerli özünüidarəetmə orqanlarının işinin səmərəli təşkili istiqamətində qanunvericilik bazası yaradılmış və bununla yanaşı, şəhər, qəsəbə, kənd bələdiyyə assosiasiyaları, Ədliyyə Nazirliyinin tərkibində Bələdiyyələrlə iş mərkəzi təşkil olunmuşdur: «Bu təşkilatların yerli özünüidarəetmə orqanlarının işinin qanunauyğun və səmərəli təşkilində böyük rolu var. Bununla yanaşı qeyd etməliyəm ki, bələdiyyə sisteminin ölkəmizdə fəaliyyətinin böyük tarixi olmadığına görə cəmiyyətin inkişaf tələbinə uyğun olaraq daim bu sistemdə yeniliklərin, təkmilləşmələrin edilməsinə ehtiyac vardır».

**F. İKRAMQIZI**

# «Made in Azerbaijan» qeyri-neft istehsalını və ixracını stimullaşdırır

*Milli brend ilə xarici dövlətlərə ixrac olunan məhsulların həcmi 44% çoxalıb*

Azərbaycan iqtisadiyyatının ixrac simvoluna çevrilən «Made in Azerbaijan» brendinin təşviqi ilə bağlı işlərə başlanmasından cəmi bir neçə ay ötməsinə baxmayaraq layihə öz uğurları ilə ölkəmiz üçün töhfəsini verməkdədir. Yerli ixracatçıların istehsal etdikləri rəqabətədavamlı məhsulların xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almaları və ixracla əlaqəli bəzi xərclərin dövlət büdcəsi hesabına ödənilməsi mexanizmini tənzimləyən milli brendimiz 2017-ci ilin birinci yarısında ixracın həcminin artmasında mühüm rol oynayıb. İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, «Made in Azerbaijan» brendinin dünyada təşviqi qeyri-neft sektorunda istehsalın artmasına səbəb olub və nəticədə ölkədən ixrac olunan qeyri-neft məhsullarının həcmi ilin ilk altı ayında 44 % artıb.

Qeyd edilib ki, milli brendimizin tanıdılmasına dövlət tərəfindən ən yüksək səviyyədə dəstək verilməsi və ixracatçılara hərtərəfli qayğı göstərilməsi qeyri-neft ixracı ilə məşğul olan sahibkarları həvəsləndirib, hazırda həmin sektorunun müxtəlif sahələrində çalışan 100-dən artıq şirkət öz məhsulunu «Made in Azerbaijan» brendi ilə dünya bazarına çıxarmaq üçün təşəbbüs göstərir. Çünki bu brend ixracatçılar üçün xarici bazarlara daha asan və rahat çıxmaq, güzəştlərlə əhatə olunmaq deməkdir. Nazirlik milli brendlə bazara çıxan ixracatçıları müəyyən etmək üçün müsabiqə təşkil edir, xarici ölkələrdə məhsula sertifikat və patent alınmasına və əmtəə nişanlarının qeydiyyatına görə onlara çəkilən xərclərin 50%-i həcmində vəsait nağdsız qaydada ödənilir. Beynəlxalq sərgi və ya yarmarkalarda «Made in Azerbaijan» brendini təşviq edən ixracatçıların da xərclərinin 30%-i dövlət tərəfindən qarşılanır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov bildirib ki, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi və marketinq fəaliyyətinin dəstəklənməsi məqsədilə sahibkarların beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə və ya fərdi qaydada iştirakı təmin edilir. Bu brend ilə ölkə stendinin təqdim olunduğu beynəlxalq sərgi və yarmarkalar müəyyənləşdirilib. Beynəlxalq sərgi və yarmarkalarda «Made in Azerbaijan» brendinin təbliği ilə bağlı ixrac missiyalarının ilkin olaraq Avropa İttifaqı ölkələri, MDB, İran körfəzi və ərəb ölkələri, eləcə də Çin, Yaponiya, Malayziya və s. ölkələrə təşkili nəzərdə tutulur. «Made in Azerbaijan» brendinin təbliğ olunduğu məhsullar və həmin məhsulların təqdim edildiyi mağazalar şəbəkəsinə İstanbul, Moskva, Frankfurt, Dubay və digər iri hava limanlarındakı «Duty Free» mağazaları, Rusiyanın tanınmış mağazaları aiddir. Həmin mağazalarda Azərbaycan şərabları, mürəbbə, bal, xalça, kəlağayı və s. kimi məhsullar təklif edilir.




Azərbaycan məhsulları ilk dəfə Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində keçirilən «Gulfood 2017» sərgisində «Made in Azerbaijan» vahid ölkə stendində nümayiş olunub. Sərgi çərçivəsində Azərbaycanın «Azprotein» şirkəti ilə BƏƏ-nin «General Tradeing Company» şirkəti arasında Dubaya ət ixracına dair müqavilə imzalanıb. Bundan başqa, Azərbaycanın «Asico» şirkəti Küveytə meyvə-tərəvəz, «AHEC» şirkəti Misir, Əfqanıstan və Səudiyyə Ərəbistanına fındıq ixracına dair təkliflər alıb, «Astara tea» və «Kercom» isə Dubaya çay və bal ixracına dair ərəb şirkətləri ilə danışıqlara başlayıb. «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi sahəsində həyata keçirilən kompleks dövlət dəstəyi tədbirlərinin davamı olaraq Belarus Respublikasının paytaxtı Minsk şəhərində «Azərbaycan Ticarət Evi» MMC yaradılıb və 20 fevral 2017-ci il tarixində Minsk Şəhər İcraiyyə Komitəsi tərəfindən qeydiyyata alınıb.

Bu günlərdə Bolqarıstanın Burqas şəhərində keçirilən «Wine Fest Burgas 2017» şərab festivalında «Made in Azerbaijan» brendinin tanıdılması məqsədilə təqdimat keçirilib. Təqdimat zamanı ölkəmizin üzümçülük və şərabçılıq ənənələri, eləcə də «Made in Azerbaijan» brendinə daxil olan şərablar barədə məlumat verilib, «Gəncə Şərab-2» şirkətinin istehsalı olan «Hillside» qırmızı turş şərabın 2017-ci ilin fevral ayında Bolqarıstanın ən nüfuzlu tədbirlərindən olan «Vinaria» şərab müsabiqəsində gümüş medala layiq görüldüyü ziyarətçilərin diqqətinə çatdırılıb. Otuz şərab istehsalçısı tərəfindən 200-dən çox şərabın təqdim edildiyi bu tədbirdə Azərbaycanın yerli «mədrəsə» üzüm növündən hazırlanmış «İvanovka bağları. 1954. Mədrəsə» və «İvanovka bağları. 1954. Kəmşirin» adlı şərablar böyük maraqla qarşılanıb.

Festival çərçivəsində açıq havada «Xalça yolu» adlı xalça festivalı da keçirilib. Azərbaycan xalçaları nümayiş etdirilib və tədbir iştirakçıları xalçalarımız barədə məlumatlandırılıb. Azərbaycanın əsasən Bakı, Şirvan, Quba, Qarabağ, Gəncə və Qazax regionlarının xalçaçılıq üzrə ixtisaslaşdığı, hər regiona aid xalçaların naxış, kompozisiya və rəng çalarlarına görə fərqləndiyi, Azərbaycan xalçalarında digər ölkələrin xalçalarından fərqli olaraq ilmələrin daha sıx yerləşdiyi və bu səbəbdən onların istifadə müddətinin daha uzun olduğu ziyarətçilərin diqqətinə çatdırılıb. Tədbirdə Azərbaycan ilə yanaşı, Bolqarıstan, İran, Mərakeş, Pakistan və Cənubi Amerika regionunun xalçaları nümayiş etdirilib.

R.Məmmədov belə hesab edir ki, xarici ölkələrə ixrac missiyalarının təşkili və «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi ilə bağlı yürüdülən siyasət qeyri-neft məhsullarının istehsalını stimullaşdırır. İxrac məhsullarının çeşidinin və coğrafiyasının şaxələndirilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi ilə yanaşı, ixracyönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin edilməsi məqsədilə müvafiq işlər aparılır.

Stimullaşdırma ilə əlaqədar digər tədbirlər əlverişli maliyyə şərtlərini, logistikanı, infrastrukturun yaxşılaşdırılmasına, xarici bazarlara çıxış üçün yardım kimi sahələri əhatə edir. Bunlardan əlavə, milli məhsulların ixracının stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərindən idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların sadələşdirilməsi, ixracatçılar üçün daha münasib şəraitin yaradılması da nəzərdə tutulur.

> «Made in Azerbaijan» brendinin dünyada təşviqi qeyri-neft sektorunda istehsalın artmasına səbəb olub və nəticədə ölkədən ixrac olunan qeyri-neft məhsullarının həcmi ilin ilk altı ayında 44 % artıb

**E.CƏFƏRLİ**

# Qiymətli kağızların təkrar bazarında artım qeydə alınıb

Maliyyə Bazarlarına Nəzarət Palatası 2017-ci ilin birinci yarım ili ərzində qiymətli kağızlar bazarının göstəricilərini açıqlayıb. Palatadan bildirilir ki, dövr ərzində ayrı-ayrı bazar seqmentlərində artım müşahidə edilib, qiymətli kağızların təkrar bazarı 54% artaraq 2,975 milyard manatı ötüb.




Korporativ qiymətli kağızlar bazarının 64% azalması fonunda, dövlət qiymətli kağızlar bazarı 4,3 dəfə artıb. Bu ilin ilk yarısında qiymətli kağızlar bazarı keçən ilin müvafiq dövrü ilə müqayisədə 26% azalaraq 5,230 milyard manat təşkil edib.

Hesabat dövründə real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 83% artaraq 1,047 milyard manat təşkil etməsinə səbəb olub. Ümumilikdə səhmlərlə ilkin bazarda bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 2,9 dəfə artaraq 983 milyon manata çatıb.

Palatanın açıqlamasında qeyd edilir ki, bu ilin altı ayı ərzində Mərkəzi Bank tərəfindən manata olan təzyiqin azaldılması məqsədilə həyata keçirilmiş not buraxılışları dövlət qiymətli kağızlar bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən edib. Bu dövrdə dövlət qiymətli kağızlar bazarında əqdlərin həcmi ötən illə müqayisədə 4,3 dəfə artaraq 1,106 milyard manat təşkil edib ki, bunun 776 milyon manatını Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil edib. Dövr ərzində ümumi məbləği 330 milyon manatdan artıq olan qısa və ortamüddətli dövlət istiqrazları yerləşdirilib. Qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 15,93% təşkil edib. Dövlət istiqrazları ilə təkrar bazar əqdlərinin məbləği 28,9 milyon manat olub.

Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 2,020 milyard manat olan valyuta əsaslı və ümumi dəyəri 188 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilib. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 2,207 milyard manat olub və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 42% artım müşahidə edilib. Qiymətli kağızlarla keçirilən repo əməliyyatlarının ümumi məbləği 11,6 milyon manat olub ki, bunun da 85%-ni (9,9 milyon manat) dövlət istiqrazları üzrə 15 repo əməliyyatı təşkil edib. Korporativ istiqrazlarla 1,7 milyon manat məbləğində 2 repo əməliyyatı keçirilib.

> Bu ilin altı ayı ərzində Mərkəzi Bank tərəfindən manata olan təzyiqin azaldılması məqsədilə həyata keçirilmiş not buraxılışları dövlət qiymətli kağızlar bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən edib




**AYTƏN**

# Biznesin uğuru üçün nəyə ehtiyac var?



Bəzən yeni açılmış müəssisə rəqabətə davam gətirmir, tezliklə bazardan çəkilmək məcburiyyəti qarşısında qalır. Bu halda köməyə biznes üzrə bilik, bacarıq və təcrübəyə malik məsləhətçi gəlir. Müsahibimiz «ARK Business Solutions» şirkətinin rəhbəri, hüquqşünas Xəyal Məmmədxanlıdır.

**- Xəyal müəllim, hər hansı müəssisədə biznes məsləhətçisinin köməyinə ehtiyac nə vaxt yaranır?**

- Biznes məsləhətçisi konkret problem mövcud olduqda, çox sayda mütəxəssis cəlb etmək üçün maliyyə vəsaiti olmadıqda, zaman, bilik və təcrübə çatışmazlığı yarandıqda, yeni layihələrin işə salınması zamanı riskləri, ümumilikdə biznesi qiymətləndirmək və perspektivləri təyin etmək, işi ləngidən zəif bəndi tapmaq, satışı və gəliri artırmaq, konsultasiya almaq, düzgün reklam vermək, problemləri həll etmək və s. barədə suallara cavab tapmaq üçün üz tutduğunuz ən uğurlu ünvandır.

**- Bəs biznesin uğurlu olması üçün təkcə pul kifayət edirmi?**

- Dünyanı bürüyən böhran biznes sektorunu, şirkətləri ağır imtahan qarşısında qoyur. Bu proses iş adamlarını, sahibkarları strategiyanı dəyişməyə, biznesə yeni gözlə baxmağa və inkişaf üçün yeni stimullar axtarmağa məcbur edir. Strategiya və taktika düzgün qurulubsa, biznesin bazardakı payı artır, biznes prosesləri optimallaşır və yeni biznes tərəfdaşlarının tapılmasına təkan verilir. Əlbəttə, bu çətinlikləri hamı keçə bilmir. Belə vəziyyətlərdə xüsusilə böhran şəraitində daha həssas olan kiçik biznesi ağır itkilər gözləyir.

Biznesdə yıxılmadan, büdrəmədən uğur qazanmaq mümkün deyil. Uşaqlıqda yıxılıb əl-ayağımızı yaralayanda böyüklərimiz bizə ürək-dirək verib deyirdilər: «Eybi yoxdur, adam yıxılanda tez böyüyər». Əslində, bu həyatın və biznesin reallığıdır.

**- Doğulmadan ölən biznes ideyaları, start-uplar var...**

-Statistika göstərir ki, hər yeni 10 biznes təşəbbüsündən 9-u uğursuzluğa məhkumdur. Başqa sözlə, dünyadakı start-upların yalnız 10%-i inkişaf edib, ayaqda qala bilir. Çox ağır olsa da, həqiqətdir.

Son dönəmlərdə dünyanın məşhur biznes nəşrləri uğursuzluğa düçar olan iş adamlarına öz hekayələrini yazaraq kitab halına salmağı sifariş verirlər. Bir çoxları kimi mən də düşünürəm ki, pafoslu «uğur hekayələrindən» daha çox biznesin ağır və keşməkeşli yolundan danışan bu hekayələri oxumaq lazımdır.

Hazırda araşdırma mərkəzləri uğursuz biznesləri ciddi təhlil edərək nəticələrə gəlməyə çalışırlar. Məşhur «FORTUNE» nəşri apardığı sorğu və təhlillərdən sonra «Start-upların uğursuzluğunun 20 səbəbi»ni müəyyən edib. Burada olduqca maraqlı məqamlar var. Məsələn, bazarda məhsula ehtiyacın olmaması, əldəki nağd pulun qurtarması, yanlış komanda, rəqabətə dözümsüzlük, qiymət-xərc məsələləri, zəif məhsul, biznes modelinin olmaması, zəif marketinq, komanda ilə investor arasında dialoq problemi, yanlış idarəetmə, maliyyə-investor marağının olmaması, hüquqi məsələlər və s.

**- Bəs uğurlu start-upların əsas xüsusiyyətləri nədir?**

- Biznes təşəbbüslərinin uğur qazanması üçün ölkədən-ölkəyə fərqli olan bir çox səbəblər var. Biz onların ən əsaslarından, xüsusilə normal biznes mühitində ortaya çıxan səbəblərdən danışacağıq.

Birincisi, məhsul bazar üçün ideal olmalıdır. İndi hər 100 biznesdən 42-nin istehsal etdiyi məhsula bazarda ehtiyac olur...

İkincisi, sahibkar heç nəyi qulaq ardına vurmamalıdır. Əsl sahibkar bazarda qarşılaşdığı hər bir təhlükəni və fürsəti dərindən təhlil edir, «əhəmiyyətsizdir» deyib heç nəyin üzərindən keçmir, hər bir amilin biznesə mümkün təsirlərini bilir və bunun üçün əlinin altında alternativ variantları olur.

Üçüncüsü, biznes sürətlə böyüməlidir. Müasir iş mühitində və iqtisadi reallıqda çeviklik və operativlik həyati əhəmiyyətə malikdir. Bəzən qərar qəbul edərkən 1 günlük tərəddüd biznesdə rəqiblərə uduzmağa və bazarı itirməyə səbəb ola bilir. Ləng hərəkət şirkətdə nağd pul çatışmazlığına gətirib çıxaran əsas amillərdəndir.

Nəhayət, komanda özünü toplamağı bacarmalı və şəraitə uyğunlaşmalıdır. Henri Ford V tipli mühərriki icad edərək avtomobillərə tətbiq etmək üçün 8 uğursuz cəhd etmiş, lakin hədəflərindən əl çəkməmişdi...

**- Biznes məsləhətçisi xidmətindən istifadə şirkətə nə verir?**

- Hər hansı biznes şirkətin qeydiyyatdan keçməsi və ya ofisinin olması ilə uğur qazanmır. Müasir rəqabət şəraitində, xüsusilə də müştəri yönümlü bazar iqtisadiyyatı şəraitində yüzlərlə amil fəaliyyətə təsir göstərir. Heç bir iş adamı peşəkar komandası və məsləhətçiləri olmadan qarşıya çıxan maneələri keçə bilməz. Ona görə də dünyadakı bütün uğurlu iş adamlarının arxasında peşəkar məsləhətçilər və komanda dayanır.

> Biznes o dərəcədə mürəkkəb və kompleks bir orqanizmdir ki, onun sağ qalması üçün bütün orqanlar öz funksiyalarını qüsursuz yerinə yetirməlidir

Biznes o dərəcədə mürəkkəb və kompleks bir orqanizmdir ki, onun sağ qalması üçün bütün orqanlar öz funksiyalarını qüsursuz yerinə yetirməlidir. Hər hansı yeni bir biznes təşəbbüsünə başlayan zaman onun üzərində peşəkar marketoloqlar, strateqlər, PR mütəxəssisləri, İT komandası, satış ekspertləri işləməlidirlər. Bunlarsız biznes kompassız gəmiyə bənzəyir. Hara, necə, kiminlə, nə vaxt gedəcəyimizi bilmiriksə, hansı uğurdan söhbət gedə bilər ki?! Gözəl bir ifadə var: «Hansı istiqamətə getdiyinə qərar verə bilməyən gəmiyə heç bir külək kömək edə bilməz».

*Müsahibəni hazırladı:*
**FƏXRİYYƏ**

# Əcnəbi turistlər nağdsız ödənişlərə daha çox üstünlük verirlər

Bu il ölkəmizin turizm sahəsində reallaşan ən önəmli tədbirlərdən biri aprel ayının 10-dan may ayının 10-dək davam edən Bakı Ticarət Festivalının keçirilməsi olmuşdur. Festivalın operatoru səlahiyyətlərini həyata keçirən Vergilər Nazirliyi tərəfindən 6 iri ticarət mərkəzində ƏDV köşklərinin fəaliyyəti üçün yerlər müəyyənləşdirilmiş, köşklərin hazırlanması, dizaynı, zəruri avadanlıqlarla təchiz edilməsi təmin olunmuşdur. Festival çərçivəsində alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması prosedurunu əks etdirən bukletlər hazırlanmış, xüsusi dizaynla nəşr etdirilərək ƏDV köşklərinə və satıcı kimi qeydiyyatdan keçən vergi ödəyicilərinə paylanılmışdır. Ticarət festivalı dövründə 22 min 112 elektron vergi hesab-fakturası (VHF) tərtib olunmuş, onlardan 20 min 853-ü ƏDV köşklərində təsdiq edilərək müvəkkil banklar tərəfindən 19 min 891 hesab-faktura üzrə 1.533.005,7 manat vəsait alıcılara qaytarılmışdır. Tərtib edilmiş e-VHF-dan ümumi məbləği 14.802.388,3 manat olan 20 min 183 e-VHF yerli vətəndaşlara, ümumi məbləği 1.430.963.5 manat olan 1929 e-VHF əcnəbilərə verilmişdir.

Onu da qeyd edək ki, ölkəmizdə turizmin inkişafı sahəsində həyata keçirilən müxtəlif tədbirlər nəticəsində Azərbaycana gələn əcnəbilərin sayında və onların həyata keçirdiyi nağdsız ödənişlərin həcmində artım müşahidə olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, 2017-ci ilin birinci yarısında ölkəmizə 1 milyon 199 min 667 nəfər xarici vətəndaş səfər etmişdir. Bu göstərici 2016-cı ilin eyni dövrü ilə müqayisədə (966 min 497 nəfər) 24 faiz artım olduğunu göstərir.

Bu ilin birinci yarısında ölkəmizə gələn xarici vətəndaşların ümumi sayında Rusiya 374 min 491 nəfərlə (17% artım) ilk yerdə qərar tutmuşdur. Sonrakı yerlərdə Gürcüstan (254 425 nəfər, 4% artım), İran (180 103 nəfər, 89% artım), Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) (44 196 nəfər, 338% artım), Ukrayna (27 342 nəfər, 14% artım) və İraq (19 355 nəfər, 75% artım) vətəndaşlarının xüsusi çəkisi daha çox olmuşdur.

Azərbaycana səfər edən ərəb ölkələrinin sayında da böyük artım nəzərə çarpır. 2016-cı ilin ilk altı ayı ilə müqayisədə bu ilin ilk yarısında Omandan 16 dəfə, Küveytdən 8, Səudiyyə Ərəbistanından 6, Qətərdən 5, Mərakeşdən 5, BƏƏ-dən 4,4, Pakistandan 3,5, Əlcəzairdən 3,5, İordaniyadan 2,2, Türkmənistandan 2 və İraqdan təxminən 1,5 dəfə çox turist ölkəmizə gəlmişdir. Regionlar üzrə isə MDB ölkələri (12 %), Avropa İttifaqı ölkələri (13 %) İran Körfəzi və Yaxın Şərq ölkələri (117%), Asiya ölkələri (64,4%), Afrika ölkələri (72%), Amerika və Avstraliyadan (22,8%) ölkəmizə səfər edən xarici vətəndaşların sayında da artım baş vermişdir.

Mərkəzi Bankın məlumatına görə, 2017-ci ilin ilk altı ayı ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları ötən ilin müvafiq dövrü ilə müqayisədə 93% artaraq 507.450,635 manat təşkil etmişdir. 2016-cı ilin birinci yarısında isə Azərbaycana gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları 263.427.544 manat, il ərzində isə 602.288.119 manat olmuşdur.

Azərbaycana gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları barədə göstəricilər




Ölkəmizə səfər etmiş xarici vətəndaşların sayı




Ticarət festivalı dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınması üçün müraciət etmiş 30 vergi ödəyicisinin 172 təsərrüfat subyektinin aidiyyəti vergi orqanında qeydiyyatdan keçməsi üçün zəruri köməklik göstərilmişdir.

Yeri gəlmişkən, Dünya Səyahət və Turizm Şurasının (WTTC) məlumatına əsasən, Azərbaycan üzrə 2016-cı ildə turizm xidmətlərinin ixracının ümumi dövriyyəsi 2,8 milyard ABŞ dolları təşkil etmişdir.

**Aytən NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 171 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. 98 ölkəyə məhsul ixrac olunub, 166 ölkədən isə məhsul idxal olunub.

Bu ilin ilk yarısında sığorta şirkətləri tərəfindən 276 milyon 158 min manatdan çox sığorta haqqı toplanılıb.

Bu ilin birinci yarısında Dövlət Neft Fondunun xarici valyuta satışları 1 milyard 687,6 milyon ABŞ dolları təşkil edib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya portfelinə daxil olan qızılın miqdarı hazırda 30 ton 175 kiloqram (970 146 troya unsiyası) təşkil edir.

«Fulfillment by Amazon» (FBA) xidməti sahibkarlarımıza məhsullarını ABŞ-da yerləşən 100-dən çox anbarda yerləşdirmə, saxlanma, qablaşdırma və çatdırılma xidməti təklif edir.

# Vergiləri ödəmək hər kəsin borcudur

Vergi ödəyiciləri arasında davamlı məlumatlandırma tədbirlərinin aparılmasına baxmayaraq, vergi bəyannamələrinin hansı formada, nə vaxt təqdim edilməsi ilə bağlı suallar çıxır. Bu cür suallara cavab vermək məqsədilə Vergilər Nazirliyi hər ay «Yaddaş» və «Vergi təqvimi» hazırlayır, rəsmi internet saytında yerləşdirir, sosial şəbəkələrdə, eləcə də ATV kanalında efirə gedən «İqtisadi zona» verilişində, «Vergilər» qəzetində və digər KİV orqanlarında bu barədə ətraflı məlumatlar verir. Bu materiallar müxtəlif tədbirlər zamanı vergi ödəyicilərinin özlərinə də təqdim olunur.

Qanunvericilik hər bir vergi növünün ödənilmə və bəyannamələrin təqdim edilməsi müddətlərini müəyyən edib. Bəyannamənin hansı formatda təqdim olunması isə vergi ödəyicisi tərəfindən müstəqil seçilir və vergi orqanı edilmiş seçimə uyğun təqdim olunan bəyannaməni nəzərə alır. Elektron bəyannamənin tətbiqi barədə müqavilənin qüvvədə olduğu müddətdə eyni hesabat dövrü üzrə eyni tip bəyannamə vergi ödəyicisi tərəfindən yalnız bir formatda (elektron və ya kağız formatda) təqdim edilməlidir. Vergi ödəyicisi vergi bəyannamələrini elektron şəkildə göndərmək üçün müvafiq «Elektron sənəd mübadiləsi haqqında ərizə»ni və iki nüsxədə «Elektron sənəd mübadiləsi haqqında müqavilə» formasını doldurub imzalamalı (möhürləməli) və uçotda olduğu vergi orqanına təqdim etməlidir. Vergi orqanı vergi ödəyicisinin ərizəsini qəbul etdiyi tarixdən sonrakı iki gün müddətində müqavilənin imzalanıb (möhürlənib) təsdiq edilməsini təmin edir. Müqavilə imzalandıqdan sonra onun bir nüsxəsi və elektron sənəd mübadiləsinin aparılması üçün zəruri istifadəçi kodu, şifrə və parol vergi ödəyicisinə qapalı zərfdə təqdim edilir. Müqavilənin qarşılıqlı imzalanması ilə vergi ödəyicisi bəyannamələrini vergi orqanına elektron şəkildə təqdim etmək hüququnu əldə edir, vergi orqanındakı qeydiyyat məlumatlarına və büdcə qarşısındakı öhdəliklərinə baxış imkanına malik olur.

Xatırladaq ki, vergi orqanına təqdim edilən elektron bəyannamələr (hesabatlar) və vergi orqanından daxil olmuş bütün elektron sənədlər 7 ildən az olmayan müddət ərzində saxlanmalıdır.

Vergi ödəyicisinin təqvim ilinin sonunadək seçdiyi metodu dəyişdirmək hüququ yoxdur və ödəyici qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi tərəfindən isə vergi uçotuna durmaq üçün ərizədə qeyd etdiyi metod tətbiq olunur.

Qeyd olunan formalar, habelə zəruri proqram təminatları, onlardan istifadə qaydaları üzrə təlimat və digər metodik məlumatlar Vergilər Nazirliyinin rəsmi internet saytının «E-xidmətlər» bölməsindən əldə oluna bilər. Vergi ödəyicilərinin, habelə əhalinin vergi qanunvericiliyi və onun tətbiqi, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlər barədə operativ, düzgün, vergi orqanlarına gəlmədən məlumat almalarını, eyni zamanda vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərin qəbulunu təmin etmək məqsədilə Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinin fəaliyyətindən yararlanmaq mümkündür. Çağrı Mərkəzinə edilən hətta hər bir xırda məsələ ilə bağlı suallar vergi ödəyiciləri üçün izah olunur. Araşdırma tələb edən suallara isə qısa zaman ərzində cavab verilir.

Vergi bəyannaməsi vergi orqanına vaxtında təqdim olunmadıqda, qanuna əsasən, vergi ödəyicisinə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi dövlət büdcəsinə qanunla nəzərdə tutulmuş müddətdə və tam həcmdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən qanunla müəyyən edilmiş vergilərin ödənilməsi, gəlir və xərclərin uçotunun aparılması, vergi hesabatlarının təqdim edilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.*

*Eyni zamanda, vergi öhdəliklərini tam həcmdə və vaxtında yerinə yetirməyən, o cümlədən vergini hesabatda göstərilməli məbləğə nisbətən azaldan və büdcəyə çatası vergi məbləğini hesabat təqdim etməməklə vergidən yayınan şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri tətbiq edilir.*

*Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün vergi orqanı məhkəməyə müraciət etmək hüququna malikdir.*

*Digər tərəfdən, Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınma cinayət əməli hesab olunur.*

*Xatırladırıq ki, təqdim etdiyiniz bəyannamələrdə gəlirləriniz barədə müvafiq məlumatları düzgün əks etdirmədiyiniz halda, Vergi Məcəlləsinin 67-ci maddəsinə əsasən əlaqəli məlumatlardan istifadə edilməklə müəyyənləşdirilmiş faktiki gəlir məbləğləri təqdim olunmuş bəyannamələrin göstəriciləri ilə üzləşdiriləcək və vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla şəxsi vərəqənizə bərpa olunacaqdır.*

*Odur ki, fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməklə vergi öhdəliklərinizi vaxtında və tam şəkildə yerinə yetirməyiniz tövsiyə olunur!*

*Əlavə məlumat almaq üçün qeydiyyatda olduğunuz vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.*

**Hörmətli vergi ödəyiciləri!**
**Mümkün maliyyə sanksiyalarının tətbiq olunmasının, eləcə də faiz hesablanmasının qarşısını almağın bir yolu vardır: vergi qanunvericiliyinə əməl etmək!**

# Dayanıqlı makroiqtisadi sabitliyin əsasını mikrosahibkarlıq təşkil edir

**Son illərdə ölkəmizdə kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan layihələr arasında «ABAD» layihəsinin xüsusi yeri var. «ABAD» Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən və 2016-cı il sentyabrın 23-də yaradılan publik hüquqi şəxsdir.**

Layihənin məqsədi kiçik və orta sahibkarlığın inkişafına, məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, ölkədə regionların və kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Qeyri-kommersiya və sosialyönümlü qurum olan «ABAD» yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının «ideyadan rəflərə» daşınmasına kömək edir. «ABAD» istehsalın planlaşdırılmasından məhsulların satışına qədər olan bütün biznes prosesinin idarə edilməsini həyata keçirir, yığılan gəlirin ailələrə köçürülməsini təmin edir. Ailələr öz bizneslərini qurmaq üçün ictimai və özəl qurumlarla birbaşa qarşılıqlı əlaqə saxlamır. Bu funksiya «ABAD» tərəfindən həyata keçirilir. «ABAD» ailələr üçün bacarıqların inkişaf etdirilməsi təlimləri də təşkil edir, «vahid pəncərə» prinsipindən istifadə edərək ailə məhsullarının sertifikatlaşdırılmasını təmin edir. Layihənin mütəxəssisləri ailələrə bazaryönümlü qablaşdırma həlləri və məhsulların dizaynı ilə bağlı kömək göstərirlər, supermarket şəbəkəsində ailə məhsullarının satışını, habelə onların daşınması və saxlanmasını idarə edirlər. «ABAD» əl işlərinin satışını öz İncəsənət mərkəzlərində təşkil edir. Bu ilin martında İçərişəhərdə «ABAD»ın ilk İncəsənət Mərkəzi açılıb. İyunda isə ikinci İncəsənət Mərkəzi Heydər Əliyev Beynəlxalq Aeroportunda istifadəyə verilib.

Bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Balakəndə «ABAD Mərkəz»in açılması da olduqca önəmli hadisədir. Balakən rayonunda «ABAD» layihəsi çərçivəsində 12 ailəyə 9 meyvə, 2 süd və 1 ət emalı üçün xüsusi istehsal avadanlığı ilə təchiz edilmiş konteynerlər təhvil verilib.

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi Pərviz Heydərovun sözlərinə görə, ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq məqsədilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ABAD» publik hüquqi şəxsin yaradılması böyük əhəmiyyətə malikdir: «Bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi artımda əsas payın sahibi kiçik və orta sahibkarlardır. Bunu inkişaf etmiş ölkələrin real iqtisadi vəziyyətlərindən, habelə təcrübələrindən əyani şəkildə görmək mümkündür. Bu ölkələrdə dövlət büdcəsinin gəlirlərinin çox hissəsi məhz kiçik və orta sahibkarlar tərəfindən təmin edilir.

Ölkəmizdə bu sahədə hələ görülməli işlər çoxdur. Sahibkarlığa dövlət dəstəyi təkcə maliyyə yardımından, bu və ya digər güzəştlərin tətbiqindən və bazarlara çıxışın təminindən asılı ola bilməz. Əlavə tədbirlər görülməli, keyfiyyətə diqqət yetirilməlidir. Bunun tərkib hissəsini müvafiq idarəetmə mexanizminin yaradılması, bütün istiqamətlərdə, əsas etibarilə mikrosahibkarlıq sahəsində güclü, bütöv və kompleks himayəçilik siyasətinin yeridilməsi təşkil edir.

İkincisi, bizdə kiçik və orta sahibkarlıq meyarları baxımından işçilərinin orta siyahı sayı 25 nəfərə kimi, illik gəliri isə 200 min manatadək olanlar kiçik, uyğun olaraq da 25 nəfərdən 125 nəfərədək və 200 min manatdan 1 milyon 250 min manatadək olanlar isə orta sahibkarlar sayılır. Məsələ bundadır ki, bundan aşağı meyarlara malik təsərrüfat sahibləri və yaxud biznes fəaliyyəti göstərən subyektlər: ailə təsərrüfatları da var. Bu təsərrüfat subyektlərini bilavasitə kiçik sahibkarlıq üçün bir növ başlanğıc və ilkin baza - rüşeym də adlandırmaq mümkündür. Bu mənada, «ABAD» mərkəzlərinin icra edəcəyi tədbirlər ölkədə mikrosahibkalığı inkişaf etdirməklə qeyri-neft sektorunun daha möhkəm kök atmasına birbaşa yardım edəcək».

P.Heydərov qeyd etmişdir ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin 40 faizə yaxını aqrar sektora məxsus ərazilərdə, regionlarda məskunlaşıb. Odur ki, ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafı və genişlənməsi bilavasitə aqrar sektorun tərəqqisi ilə nəticələnəcək ki, bununla məşğulluq probleminin həllinin də 70-80 faiz yüngülləşməsi üçün zəmin yaranacaq.

**FƏXRİYYƏ**

## 2017-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergiorqanına təqdim etməli və hesablanmış vergilər əmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin avqust ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr:**

- 2017-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin **avqust ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2017-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak** vergisinin cari ödəmələrini **avqust ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Vergilər avqust ayında ödənilir, bəyannamə** rüblük olaraq **oktyabrın 20-dən gec** olmayaraq təqdim edilir:

- Muzdlu işlə əlaqədar 2017-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə **yanvar ayının 31-dən** gec olmayaraq, digər vergi ödəyiciləri isə 3-cü rüb üzrə bəyannaməni cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların 2017-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi cari ilin **avqust ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron kadastr sisteminin əhatə dairəsi böyüyür

Ölkə üzrə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması ilə bağlı işlər müvəffəqiyyətlə icra olunur. İndiyədək respublikanın 12 rayonunda 870 min hektardan çox ərazidə irimiqyaslı çöl torpaq tədqiqatı, 700 min hektara yaxın ərazidə çöl geobotaniki tədqiqat işləri aparılmışdır.

Əmlak Məsələləri Dövlət Xidmətinin KİX-lə əlaqələr üzrə rəhbəri Qulu Xəlilovun məlumatına əsasən, 2017-ci ildə torpaqların elektron kadastr uçotu layihəsinə cəlb edilmiş 14 rayonda 1 milyon hektardan artıq sahə, 700 minə yaxın parsel üzrə uçot işi nəzərdə tutulur: «İl ərzində 800 min hektar ərazidə irimiqyaslı torpaq tədqiqatı işlərinin, 550 min hektar ərazidə çöl geobotaniki tədqiqat işlərinin aparılması da planlaşdırılır. Torpaq tədqiqatı işlərinin nəticələrinə əsaslanaraq bu ərazilərin torpaq, şorlaşma və eroziya xəritələri hazırlanır, torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi yerinə yetirilir. Qeyd edilməlidir ki, bu ilin ilk yarısında 268 min hektara yaxın ərazidə çöl torpaq tədqiqatı, 200 min hektar ərazidə çöl geobotaniki tədqiqat işləri aparılmışdır».

### Torpaqların kadastr uçotuna alınması yekunlaşdıqca etibarlı kadastr məlumatları əsasında şəhər, qəsəbə, kənd bələdiyyələrinin müasir rəqəmsal xəritələri hazırlanır

Bildirilmişdir ki, torpaqların kadastr uçotuna alınması yekunlaşdıqca etibarlı kadastr məlumatları əsasında şəhər, qəsəbə, kənd bələdiyyələrinin müasir rəqəmsal xəritələri hazırlanır. Bu işlər Gəncə, Sumqayıt, Şəki şəhərlərinin, Xızı və Salyan rayonlarının inzibati sərhədləri daxilində yerləşən bələdiyyələr üçün artıq başa çatmışdır. Bakı şəhərinin 53 bələdiyyəsindən 51-nin xəritələrinin hazırlanması yekunlaşmaq üzrədir: «Kadastr uçotu işlərinin nəticələrindən istifadə etməklə torpaq islahatı başa çatmamış təsərrüfatlarda yerquruluşu işləri həyata keçirilir. Bu işlər çərçivəsində Xaçmaz, Siyəzən, İmişli, Beyləqan rayonunda yaşayan 1000-dən artıq ailənin uzun illərdən bəri mövcud olan torpaqla bağlı problemi öz müsbət həllini tapmışdır.

Bir sıra inzibati-ərazi dairələri üzrə sərhədlərin hələ də dəqiqləşdirilməməsi torpaq idarəçiliyində problemlər yaradır. Hazırda aidiyyəti mərkəzi və yerli icra hakimiyyətləri orqanları ilə birlikdə bu problemlərin həlli ilə bağlı tədbirlər görülür».

Q.Xəlilov qeyd etmişdir ki, ölkənin 4,1 milyon hektar ərazisinin ortofotomateriallarının rəqəmsallaşdırılması və bu ərazi üçün relyef xəritələrinin hazırlanması artıq başa çatdırılmışdır: «Respublikada iri təsərrüfatların yaradılması məqsədilə aidiyyəti orqanlarla birlikdə 18 rayonun inzibati ərazilərindən yeni əkin dövriyyəsinə cəlb ediləcək 150 min hektara yaxın torpaq massivlərinin və bir sıra rayonlarda yeni suvarılacaq ərazilərin kadastr xəritələri hazırlanmışdır.

Təyinatından və mülkiyyət növündən asılı olmayaraq bütün torpaqların kadastr uçotuna alınması 2020-ci ildə başa çatdırılacaq, dəqiq kadastr uçotu məlumatları əsasında rəqəmsal bələdiyyə xəritələri hazırlanacaqdır».

**F. İKRAMQIZI**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Kiçik biznes stimullaşdırılır

Avqust ayının 1-dən Böyük Britaniyanın vergi administrasiyası kiçik biznesi və özüməşğul əhalini dəstəkləmək üçün yeni onlayn xidməti istifadəyə vermişdir. Bu xidmət şirkətlərin qeydiyyata alınması və vergitutma ilə bağlı bütün zəruri informasiyaların tez və asan əldə edilməsinə yardım üçün yaradılmışdır. Məsləhət xidmətinin əsas istiqamətlərini bunlar təşkil edir:

- Biznesin qeydiyyatı;
- Muzdlu işçilərin cəlb edilməsi və şirkətin genişləndirilməsi də daxil olmaqla biznesin inkişafına yardım göstərmək;
- Malların ixracı və idxalı;
- Vergi kreditləri;
- Vergi güzəştləri.

Dövlət xəzinədarlığının katibi mövzu ilə bağlı şərh verərək demişdir: «Böyük Britaniya ərazisində fəaliyyət göstərən beş milyondan artıq müəssisə bizim iqtisadiyyatımız üçün həyat əhəmiyyətli rol oynayır, ona görə də biz yeni açılan şirkətlərə, eləcə də inkişaf etməkdə olan müəssisələrə yarım göstərmək istəyirik».

Qeyd edilmişdir ki, bu yeni xidmət şirkətlərin vergiyə cəlb edilməsi sahəsində aparılan islahatlar üzrə 2016-cı ildən başlamış geniş əhatəli layihənin tərkib hissəsidir.

## Bir neçə evi olanlardan kapitalın artımı vergisi tutulacaq

Cənubi Koreya hökuməti bir neçə mənzilin və ya evin sahibi olan şəxslərdən kapitalın artımı vergisinin tutulmasına hazırlıq görür. Bundan əlavə, möhtəkirliyin cilovlanması məqsədilə ipoteka kreditinə aid şərtlərin də sərtləşdiriləcəyi gözlənilir. Siyasətçilərin rəyinə görə, ölkənin əsas regionlarında ev bazarında vəziyyətin gərginləşməsinə möhtəkirlər səbəb olurlar.

2018-ci ilin aprel ayından başlayaraq iki yaşayış əmlakına sahib olan Cənubi Koreya vətəndaşları gəlirlərinin həcmindən asılı olaraq hazırda qüvvədə olan 6%-dən 40%-dək vergi dərəcəsi ilə yanaşı, kapitalın artımı üçün əlavə 10% də vergi ödəməli olacaqlar. Əmlakı üç evdən artıq olan vətəndaşlar üçün isə yeni verginin dərəcəsi 20% olacaq. Qeyd edək ki, kapitalın artımı vergisi ilə bağlı təkliflərə parlamentdə baxılmalıdır.

«Real Estate 114 Inc» şirkətinin əmlak məsələləri üzrə anlitiki Li Mi-Yun demişdir: «Bu gün belə bir addımın atılması, yəqin ki, mənzil bazarında möhtəkiliyin qarşısının alınması üçün ən təsirli tədbirdir. Bir neçə mənzili olan vətəndaşlar isə qanunun qüvvəyə minməsini gözləyəcəklər».

Hökumətin açıqlamasında bildirilmişdir ki, yaşayış obyektləri investisiya məhsuluna çevrilməməlidir, onlarda insanlar yaşamalıdır. Ona görə də mənzil bazarında möhtəkikliklə məşğul olanların qarşısı digər tədbirlərlə yanaşı, həm də kapitalın artımına verginin əhatə dairəsinin genişləndirilməsi ilə alınmalıdır».

## Hökumətdən tütün məhsullarına aksizlərin artırılması tələb edilir



Yeni Zelandiyada aktivistlər hökumətdən qarşıdakı üç il ərzində tütün məhsullarından tutulan aksiz vergisinin dərəcəsini 20% artırmağı tələb edirlər. Onlar bununla 2025-ci ilə qədər Yeni Zelandiyanı siqaret çəkməyənlər ölkəsinə çevirəcəklərini inanırlar.

Otaqo universitetinin araşdırması başa çatdıqdan sonra tütün məhsullarının tənzimlənməsi sahəsində ixtisaslaşmış tədqiqatçılar və mütəxəssislər tütünün insan sağlamlığına vurduğu ziyanlar barədə növbəti dəfə məruzələr etmişlər. Aktivistlər aksiz vergisinin dərəcəsinin artırılmasından əlavə, tütün məhsullarını satın almağa icazə verilən yaş həddinin də əsaslı şəkildə yüksəldilməsini tələb edirlər. Onlar belə hesab edirlər ki, təklif olunan tədbirləri indidən həyata keçirməyə başlamasalar, 2025-ci ilədək Yeni Zelandiyanı siqaret çəkməyənlər ölkəsinə çevirmək planı da təxirə salınmalı olacaq.

## Parlamentdə vergi islahatı qəbul olunub

Latviya Parlamentin qəbul etdiyi yeni vergi islahatları paketinə əsasən, gəlirlər bölüşdürülənə qədər onlardan korporativ vergi ödənilməyəcək.

2018-ci il yanvarın 1-dən qüvvəyə minəcək dəyişikliklərə görə, korporativ verginin dərəcəsi 20% olacaq. Bu zaman müəssisəyə investisiya kimi qoyulmuş gəlir vergiyə cəlb edilməyəcək.

İslahata əsasən, aksiyaları saxlayanların dividendlər üçün gəlir vergisi ödəmək öhədliyi olmayacaq. Bunlarla yanaşı, parlamentdə iki illik keçid dövrü nəzərdə tutulmuşdur, bu müddət ərzində özəl şəxslərin əvvəlcədən yığılmış gəlirləri 10%-lik aşağı dərəcə ilə, korporativ gəlir isə 15%-lik dərəcə ilə vergiyə cəlb olunacaq.

İslahatlar çərçivəsində həm işçilər, həm də işəgötürənlər üçün sosial sığorta fonduna ödənilən haqların da 0,5% artırılması nəzərdə tutulur. Hazırda ölkədə sosial sığorta fondlarına ödənilən haqq işçilər üçün 34,09%, işəgötürənlər üçünsə 10,5% təşkil edir. Həmçinin royalti gəlirlərindən də 5%-lik əlavə sosial haqq tutulması planlaşdırılır - həmin məbləğ fiziki şəxsin pensiya fonduna köçürüləcək.

## «Apple» tədarükçülərə güzəşt verilməsini istəyir

«Apple» şirkəti Hindistan hökumətindən vergi güzəştlərinin bu şirkətin tədarükçülərinə də tətbiq olunmasını xahiş etmişdir: yalnız bu halda ölkə «iPhone» cihazları və onların hissələrinin istehsalı sahəsində mərkəzə çevrilə bilər. Müraciətə hökumət tərəfindən verilən cavabda isə bildirilmişdir ki, bu xahişin yerinə yetirilməsi üçün qanunvericilik dəyişdirilməlidir ki, telefon hissələrini istehsal edən digər şirkətlərin ədalətli rəqabət imkanları aradan qalxmasın.

Xatırladaq ki, keçən ilin may ayından bəri ABŞ-ın bu nəhəng texnologiya şirkəti Hindistan hökuməti ilə danışıqlar aparır. Bu danışıqların nəticələri barədə Hindistanın Baş naziri Narendra Modi və şirkətin baş direktoru Tim Kuk arasında «iPhone» cihazlarının ölkə ərazisində istehsalına baza yaratmaq barədə razılaşma əldə edilmişdir. Tərəflər amerikalıların hələ keçən il oktyabr ayında irəli sürdükləri bütün «zəruri şərtlərin» siyahısını müzakirə etmişlər. Danışıqların mövzusuna vergi güzəştləri, o cümlədən ayrı-ayrı komponentlərin hazırlanması üçün avadanlıqların və xammalın 15 il müddətinə gömrük rüsumundan azad edilməsi də daxildir.

«Onlar telefon hissələrinin tədarükçüləri üçün vergi güzəştləri istəyirlər, lakin bu böyük istəkdir, əgər həyata keçirilməli olsa, qanuna bağlanmalıdır», - hökumətin təmsilçisi demişdir.

Bildirək ki, «Apple» şirkəti Tayvandan olan podratçısı «Winstron» ilə birlikdə may ayından Hindistanın Banqalor şəhərində «i-Phone» istehsalına başlamışdır. Buna qədər isə həmin telefonlar yalnız Çində hazırlanırdı.

## BVF avrozona ölkələrinə dolayı vergiləri artırmağı tövsiyə edib

Beynəlxalq Valyuta Fondunun (BVF) ictimaiyyətə açıqladığı məruzəsində avro zonasına daxil olan ölkələrə məşğulluğu və məhsuldarlığı artırmaq məqsədilə işçi qüvvəsindən tutulan verginin dərəcəsini aşağı salmaq, dolayı vergiləri isə artırmaq tövsiyə edilmişdir.

BVF-nin rəyinə görə, vergi islahatını həyata keçirmək üçün illərlə zaman lazım olmasına baxmayaraq ölkələr vergilər ilə xərclərin daha yaxşı uzlaşdırılmasından fayda əldə edə bilərlər. «Gəlirlərə münasibətdə əhalidən tutulan gəlir vergisindən ətraf mühitə tullantılara qoyulan vergilər və əmlak vergisi də daxil olmaqla dolayı vergilərə keçid etməyin gətirdiyi faydaya üstünlük verilməlidir. Vergi dərəcələrinin hədləri aşağı salınarkən vergi bazası da genişləndirilməlidir», - BVF-nin yaydığı açıqlamada göstərilmişdir.

Məruzədə o da qeyd edilmişdir ki, Almaniya istisna olmaqla işçi qüvvəsindən tutulan verginin aşağı salınmasından qabağa düşür, İtaliya isə vergi xərclərinin rasionallaşdırılması və vergi bazasının genişləndirilməsi, eləcə də əmlak üçün müasir vergi tətbiq edilməsi yolu ilə işçi qüvvəsindən tutulan vergilərin azaldılmasına lazım olan xərcləri maliyyələşdirə bilər. BVF ekspertlərinin gəldikləri qənaət budur ki, fiskal məkana malik ölkələr bundan potensial artıma şərait yaradan amillərin - dövlət investisiyalarının və struktur islahatların dəstəklənməsində istifadə etməlidirlər.

## Norveçdə hələlik turist vergisi tutulmayacaq

Hökumət bir sıra lobbiçi qrupların ölkədə turist vergisinin tətbiq edilməsi ilə bağlı təklifinə baxılmasını təxirə salmışdır. Məlum olduğu kimi, son bir neçə il ərzində ölkənin turizm sənayesində böyük canlanma yaşanmaqdadır ki, ictimai təşkilatların mövqeyinə görə bu, yerli infrastuktura və ətraf mühitə mənfi təsir göstərir.

Norveçin Dövlət Statistika İdarəsinin məlumatına əsasən, 2016-cı ildə ölkəyə gələn turistlərin sayında orta hesabla 11% artım olmuşdur, turistlər arasında populyar olan Tromsyö regionunda isə bu göstərici 32%-ə çatmışdır. Bu rəqəmlərin ölkə ictimaiyyətinə açıqlanmasından sonra bir sıra kiçik partiyalar yerli infrastruktura, o cümlədən əhalinin az yaşadığı üçün infrastrukrun saxlanılmasına az vəsait ayrılan regionlara daha artıq sərmayə qoyulması məqsədilə turist vergisinin tətbiqi ilə bağlı təklif irəli sürmüşlər. Lakin hökumət hələlik bu təkliflərə baxılmasından imtina etmişdir.

Xatırladaq ki, 2017-ci ilin iyul ayından Norveçdə vergilər artırılmışdır - sərnişin daşımalarına tətbiq olunan yeni vergi sərnişinlərin sayında 7%-lik azalmaya səbəb olmuşdur.



krossvord

**Yuxarıdan aşağı:** 1.Çində yaranmış, daha sonra bütün dünyada məşhurlaşmış döyüş növü. «İnsan nailiyyəti» kimi tərcümə olunur; 2.Kəmdişlilərə aid heyvan dəstəsi; 3.Rusiya Federasiyasının Pskov vilayətində çay; 4.Natiq; 5.Avropada ada dövlət; 6.Respublikamızda rayon; 9.Türk-monqol mifologiyasında cəza tanrısı, dağ silsiləsi; 13.Üç muşketyordan biri; 15.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 16.Şahmat oyununun ilk mərhələsi; 17.Hər hansı bir məlumatı, xəbəri, komandanı uzağa ötürmək üçün şərti səs və ya işıq işarəsi; 18.Ftorun digər elementlərlə kimyəvi birləşməsi; 20.Sərinləşdirici içki, süd məhsulu; 21.Məqsəd, amal. **Soldan sağa:** 1.Musiqi aləti, fortepianonun əcdadı hesab edilir; 5.İdarəetmədə magistr ixtisas dərəcəsi, ingilis dilindən alınmış qısaltma; 7.Qədim sikkələri və medalları yığan və tədqiq edən mütəxəssis; 8.Əsasən Azərbaycanın şimalında və cənubunda yarıköçəri (yaylaq-qışlaq) maldarlıqla məşğul olan sosial zümrə; 10.Yunan mifologiyasında Krit hökmdarı; 11.Paytaxtımızın Yasamal rayonunun SSRİ dövründəki adı; 12.Yaradıcılıq zamanı özünü göstərən ruhlanma halı, yaradıcı fikrin yüksəlişi; 14.Türk və monqollarda tayfa birliyi forması; 19.Azərbaycanın futbol tarixində silinməz izlər qoyan futbolçunun adı. Hücumçu, məşqçi, «Neftçi»nin kapitanı, SSRİ-nin əməkdar idman ustası; 21.Çar Rusiyasında qapalı orta hərbi məktəb müdavimi; 22.Pul vəsaiti və ya natural formada alınan aktiv, habelə hər hansı iqtisadi subyekt qarşısında icra olunmamış öhdəlik; 23.Müəssisəyə və idarəyə məxsus avadanlığın, ləvazimatın və s.-nin məcmusu; 24.Metrik ölçü sistemində 1000 kiloqrama bərabər çəki vahidi; 25.Rusiyada şəhər və vilayət.



*«D'Artanyan və üç muşketyor» filmindən epizod. Venyamin Smexovun canlandırdığı obraz*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kondor; 2.Nuriyyə *(Əhmədova)*; 3.Rakel; 4.Beluxa; 5.Ağlay; 6.Tolkin *(Con Ronald Ruel)*; 9.Amal; 13.Gəbə; 15.Assorti; 16.Marduk; 17.Stirol; 18.Tamtam; 20.Nübar; 21.Kofta. **Soldan sağa:** 1.Kontrabas; 5.Akt; 7.Nartkala; 8.Əlil; 10.Oryol; 11.Xomeyni; 12.Cəngi; 14.Elxan *(Cəfərov)*; 19.Alnabat ; 21.Kasta; 22.Dəbə; 23.Trafaret; 24.Kür; 25.Palladium.

SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# ABŞ velosiped idmanının BMX növü üzrə dünya çempionatının estafetini Azərbaycana verib

**ABŞ-ın Cənubi Karolina ştatının Rok Hill şəhərində velosiped idmanının BMX növü üzrə dünya çempionatı başa çatıb. Qərb dünyasında çox populyar olan bu yarışda planetin 48 ölkəsindən 3750 idmançı iştirak edib.**



48 ölkədən 3750 idmançının iştirak etdiyi yarışa rəsmi qonaq kimi Azərbaycan nümayəndə heyəti də qatılıb. Rok Hill şəhərinin meri Duq Ekolsla görüş zamanı Azərbaycan Velosiped İdmanı Federasiyasının I vitse-prezidenti Sahib Ələkbərov BMX üzrə dünya çempionatının estafetini ABŞ kimi ölkədən qəbul etməyin Azərbaycanın üzərinə əlavə məsuliyyət qoyduğunu bildirib. Bu idman növü Qərbdə çox populyar olsa da, Azərbaycanda yalnız «Bakı-2015» I Avropa Oyunlarından sonra tanınmağa başlayıb.

Avropa Oyunlarında Azərbaycanın, digər idman növləri kimi, velosiped yarışlarını da ən yüksək səviyyədə təşkil etdiyini görən Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) 2018-ci il dünya çempionatını Azərbaycan Velosiped İdmanı Federasiyasına etibar edib və dövlət başçısı İlham Əliyevin tapşırığı ilə hazırlıq işlərinə başlanılıb. 2015-ci ilin əvvəlində paytaxtda ən müasir tələblərə cavab verən BMX stadionu inşa edilsə də, 2016-cı ildə UCI müvafiq qaydaları və stadionların ölçülərini dəyişdiyindən Bakı stadionu yenidən qurulub, trekin uzunluğu, eni, manеələrin sayı və döngələrin hündürlüyü artırılıb.

Dünya çempionatında iştirak edən ikiqat Olimpiya, altıqat dünya çempionu, kolumbiyalı Mariana Pajon gələn il böyük məmnuniyyətlə ölkəmizə səfər edəcəyini deyib: «BMX idman növünün populyarlaşmasında göstərdiyi xidmətlərə görə Azərbaycan Velosiped İdmanı Federasiyasına təşəkkürümü bildirirəm. Şadam ki, gələn il dünya çempionatı Azərbaycanda keçiriləcək və səbrsizliklə bu yarışı gözləyirəm. Artıq ölkəniz, həmçinin yarış treki ilə müəyyən qədər tanış olmuşam və hər şeyin yüksək səviyyədə olacağına əminəm».

BMX üzrə UCI-nin keçirdiyi və bütün ölkə nümayəndələrinin iştirak etdiyi toplantıda Azərbaycan nümayəndə heyəti geniş təqdimatla çıxış edib. Təqdimatın əvvəlində ölkəmizin gözəlliklərini, idmana olan dövlət qayğısını və velosiped idmanının inkişafını əks etdirən videoçarx hamının böyük marağına səbəb olub. Çempionata gələcək iştirakçıların transferi, vizaların alınma qaydaları, otellərdə yerləşdirmə və s. məsələlər də böyük razılıqla qarşılanıb. Yarışın sonunda çempionatın bayrağı estafet kimi Azərbaycan nümayəndə heyətinə təqdim edilib.

Qeyd edək ki, BMX növü üzrə dünya çempionatı 2018-ci il iyunun 5-9-da Bakıda keçiriləcək.

# «Qarabağ» pley-off mərhələsində «Kopenhagen»lə qarşılaşacaq

Avqustun 4-də İsveçrənin Nyon şəhərində UEFA Çempionlar Liqasının pley-off mərhələsinin püşkü atılıb. Püşkün nəticəsinə əsasən, Ağdamın «Qarabağ» komandasının bu mərhələdəki rəqibi Danimarka çempionu «Kopenhagen» klubu olub. Turnirin qrup mərhələsinə vəsiqə uğrunda bu komandalar arasında keçiriləcək ilk oyun Bakıda, cavab görüşü isə Danimarkada olacaq. Mərhələnin ilk qarşılaşmaları avqustun 15-16-da, cavab matçları isə avqustun 22-23-də keçiriləcək.

Xatırladaq ki, Azərbaycanın çempionu UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin cavab matçında səfərdə Moldovanın «Şerif» klubunu 2:1 hesabı ilə məğlub edərək turnirin pley-off mərhələsinə vəsiqə qazanıb. Qeyd edək ki, «Kopenhagen» «Qarabağ» üçün tanış rəqibdir. Bu komandalar 1998-99 mövsümündə Kuboklar Kubokunda üz-üzə gəlib. Danimarka klubu evdə 6:0, Bakıda isə 4:0 hesablı qələbə ilə təmsilçimizi mübarizədən kənarlaşdırıb.

Yeri gəlmişkən, UEFA Avropa Liqasında ölkəmizi təmsil edən «Qəbələ» klubu Yunanıstanın «Panatinaikos» komandasına məğlub olaraq, turnirdə çıxışını dayandırıb (0:1 və 1:2).

# Neymar rəsmən PSJ-də...

İspaniyanın «Barselona» klubunun və Braziliya millisinin ulduz futbolçusu Neymarın Fransanın PSJ komandasına keçidi rəsmiləşib. Bu barədə Paris klubunun rəsmi saytı məlumat yayıb.
Parislilər transferin baş tutması üçün qarşı tərəfə 222 milyon avro ödəyib, nəticədə Neymar dünyanın ən bahalı futbolçusu olub. Onunla 2022-ci ilin iyul ayına qədər müqavilə imzalanıb. Braziliyalı hücumçu Paris təmsilçisinin heyətində 10 nömrəli forma ilə çıxış edəcək.
Qeyd edək ki, Neymar 2013-cü ildən İspaniyanın «Barselona» komandasında çıxış edirdi. O, Kataloniya klubunda 186 oyuna 105 qol vurub.



## mozaika

sağlam həyat tərzi

# Pərpərən



Pərpərən, pərpətöyün, tərpətöyün, gəlin barmağı kimi tanınan bu bitki Azərbaycanın hər tərəfində yabanı alaqotu kimi bitir. Dadlı qida məhsulu olan pərpərənin tərkibi sink, mis, nikel, dəmir, kalsium, kalium, natrium, maqnezium kimi minerallarla zəngindir. Tərkibində C və A vitaminləri olan bu bitki uşaqdan tutmuş qocalara qədər hamı üçün faydalıdır. Daimi istifadə edən insanların dərisi parlaq, əhvalı yüksək olur. Pərpərən mədə-bağırsaq sisteminin normal çalışmasına kömək edir, əsəb gərginliyi, zəiflik əleyhinə istifadə olunur. Tərkibində başqa bitkilərdə nadir rast gələnən noradrenalin vardır - bu maddə yüksək qan təzyiqini aşağı salır.

**FAYDALARI**

- Anemiyaya (qanazlığına) qarşı faydalıdır: tərkibindəki dəmiri bədən tez sora bilir;
- Tərkibindəki saponinlər orqanizmə gümrahlaşdırıcı təsir göstərir: yorğunluq və uzun sürən xəstəlik zamanı məsləhət görülür;
- Qan təzyiqini salmaqla yanaşı, qandakı şəkəri normallaşdırır;
- Tərkibindəki zəngin kalsium sümük boşluğunda, sümük ərimısində faydalıdır;
- Tərkibindəki kalium ürək əzələsinin və saya əzələrinin işini nizamlayır;
- Sidikqovucu kimi istifadə olunur, bədənin itirdiyi kaliumu bərpa edir;
- A vitamininə görə göz zəifliyindən əziyyət çəkənlər üçün xeyirlidir;
- Prostat vəzi xəstəliklərinə qarşı məsləhət görülür;
- Uşaqlarda beyinin inkişaf etməsinə köməyi dəyir;
- Qaraciyər çatışmazlığına qarşı məsləhət görülür;
- Tərkibindəki selikli maddələr yaxşı bəlğəm gətiricidir;
- Dərinin təravətini artırır;
- Zob xəstələrinə məsləhət görülür;
- Əsəbləri sakitləşdirir, yuxunu dərinləşdirir;
- Tərkibindəki güclü antioksidantlar hesabına xərçəngdən qorunmaq üçün faydalıdır;
- Babasil xəstəliyindən əziyyət çəkənlər pərpərəni tez-tez yeməlidirlər;
- Qandakı xolesterini salır;
- Ateroskleroza qarşı yaxşı təsir göstərir;
- Arıqlamaq istəyənlər pərpərəndən istifadə edə bilərlər.

flora

# Günəşə can atan

Tünd yaşıl rəngli, o qədər də gözəgəlimli olmayan və şümal kaktusa bənzəyən dibçək bitkisi bir neçə ildən sonra çəhrayı rəngli zoğun üstündə heyrətamiz gözəllikdə bənövşəyi çiçəkləri olan bitkiyə çevrilir. Həmin dibçək bitkisi göy tillandsiyadır.

Bitkinin yarpaqları nazik, düz formalı, tünd yaşıl rəngdədir və üzəri kiçik pulcuqlarla örtülü olur. Çiçəyin zoğu qəribə formalı, qısa, enli və yastı sünbüldür. Rəngi açıq yaşıldan çəhrayı və qırmızıya qədər dəyişir. İyirmi çiçəkdən təşkil olunmasına baxmayaraq, yalnız biri, nadir hallarda ikisi çiçək açır.

Təbiətdə tillandsiyaların 400-ə yaxın növünə rast gəlinir. Bu bitki İsveç botaniki E.Tillandsın şərəfinə belə adlandırılıb. Bitkinin vətəni Ekvador və Perudur. Əsasən dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən meşələrdə bitir. Maraqlıdır ki, tillandsiya yabanı halda ağacların üstündə inkişaf edir və günəşə yaxın olmaq üçün ağaclardan dayaq kimi istifadə edir. Həmin xüsusiyyətinə görə tillandsiya epifit bitki adlanır.

Tillandsiya işıqsevən bitkidir, payızda və qışda ev şəraitində şərqə və ya qərbə baxan pəncərələrin qarşısı bitki üçün ən ideal yer sayılır. Rütubətli meşələrdə bitdiyi üçün ev şəraitində onu nəmliyi 60 faiz olan otaqlarda saxlamaq məsləhətdir. Yarpaqlarına tez-tez ılıq və yumşaq su püskürtmək lazımdır. Bitki çiçəkləyəndən sonra cavan zoğlar əmələ gətirir, özü isə məhv olur. Həmin mərhələdə tillandsiya pəncərənin qarşısına qoyulmalı və çiçəkləri tökülənə qədər yeri dəyişdirilməməlidir.

texnologiya

# Robot avtomobillərdən ibarət nəqliyyat şəbəkəsi

Yaponiya hökuməti avtomat idarəetmə sisteminə malik nəqliyyatın sınaqları proqramının həyata keçirilməsinə başlamağı planlaşdırır. Həmin sistem əhali sıxlığı az olan yaşayış məntəqələrində yaşlı sakinlərin hərəkətini asanlaşdırmaq məqsədi daşıyacaq.

Milli Torpaqlar, İnfrastruktur, Nəqliyyat və Turizm Nazirliyi istirahət mərkəzlərinə yaxın olan zonalar da daxil olmaqla belə nəqliyyat şəbəkəsini 13 yerdə yaratmaq niyyətindədir.

Bazarlıq etmək və ya görməli yerlərə baxmaq istəyən istifadəçilər belə nəqliyyat vasitəsini smartfon vasitəsilə sifariş edə bilərlər. Bundan əlavə, həmin nəqliyyat vasitəsindən göndərişləri çatdırmaq üçün də istifadə etmək olar.

Sınaqların cari yayın sonlarında başlanması planlaşdırılır. Nazirlik bu sistemi yaxın 3 ildə əməli istifadəyə verməyi nəzərdə tutur.

aktual

# Arıqlamaq istəyənlər üçün məcburi qida



Liverpul Universitetinin əməkdaşları tədqiqat apararaq, toyuq yumurtasının pəhriz saxlayan adamlar üçün şəksiz faydasını sübuta yetiriblər. Çəkisini azaltmaq istəyən adamlar gündə azı iki yumurta yeməlidirlər. Hal bu ki lap bu yaxınlarda həkimlər bildirmişdilər ki, yumurta xolesterinin səviyyəsini artırır. Buna görə də xüsusən pəhriz dövründə yumurta yemək tövsiyə olunmur.

Ancaq 450 orta yaşlı könüllünün iştirakı ilə sonuncu tədqiqat göstərib ki, üç aylıq aşağı kalorili pəhriz zamanı bütün iştirakçılar, orta hesabla, 4,5 kiloqram arıqlayıblar. Könüllüləri iki qrupa ayırıblar. Birinci qrup yumurta yeyib, ikinci qrupun rasionundan yumurta tamamilə çıxarılıb. Bu zaman qanda xolesterinin səviyyəsi təhlil edilib.

Ekspertlər yumurta yeyib-yeməməsindən asılı olmayaraq, bütün könüllülərin qanında xolesterinin səviyyəsinin azaldığını görəndə təəccüblənibləр. Odur ki, yumurta gözəl qamət üçün mühüm sayılan zülal mənbəyi olduğuna görə, onu arıqlayan adamlar üçün məcburi məhsul saymaq olar. Yeri gəlmişkən, alimlər təkcə toyuq deyil, həm də bildirçin yumurtaları yeməyi tövsiyə edirlər.

maraqlı

# Öldürücü bitkilər



Canlılar aləminin üzvlərindən biri olan bitkilər tənəffüs etdiyimiz təmiz havanın, ehtiyacımız olan qidaların və sərf etdiyimiz enerjinin əsas mənbəyi sayılır. Bununla yanaşı, heyrətamiz mənzərələrin, bihuşedici qoxuların və gözoxşayan rənglərin mənbəyi də bitkilərdir. Beş yüz mindən çox növü olan flora aləmi bəşəriyyət üçün mühüm yer tutur. Lakin dünyada bəzi bitkilərə sadəcə flora nümunəsi kimi yanaşmamaq lazımdır. Çünki onlar nə qədər gözoxşayan, faydalı olsalar da, elə növlər var ki, insan həyatına son qoya bilər.

Gənəgərçək bitkisi Aralıq dənizi hövzəsi, Şərqi Afrika və Hindistan ərazisində yetişsə də, dekorativ və təbabət məqsədilə dünya miqyasında geniş yayılıb. Risin adlı toksiki maddə bitkinin hər yerində, xüsusilə toxumlarında cəmlənib. Həmin bitkidən qida məqsədilə istifadə edən şəxsdə zəhərlənmə özünü bir neçə saat içərisində büruzə verir. Ağız və boğazda yanma hissi, qarın ağrısı, qanlı ishal və qusma həmin əlamətlər arasındadır. Zəhərlənmə başladıqdan sonra qarşısını almaq qeyri-mümkündür. Son olaraq dehidratasiya, yəni orqanizmin susuzlaşdırılması səbəbindən ölüm günlər içində yavaş-yavaş və əzablı şəkildə gerçəkləşir.

Dünyanın ən zəhərli ağacı adlandırılan Mançinel ağacı Baham, Karib adaları, ABŞ-ın Florida ştatı, Orta və Cənubi Amerika bölgəsində rast gələnən nadir növlərdən biridir. Ona ən kiçik bir toxunuş belə dəri üzərində yanıqlar meydana gətirəcək qədər güclü təsirə malikdir. Bədən həmin zəhərə qarşı qısamüddət içində reaksiya verir və dəridə qabarcıqlar halında su toplanmağa başlayır. Əgər yağış yağarkən ağaca yaxınlaşar və ağacdan sıçrayan bir yağış damlasına məruz qalarsanız, bu da həyatınız üçün təhlükə deməkdir. Yanan bir Mançinel ağacının dumanı gözə təmas edərsə, korluğa belə səbəb ola bilər. Meyvənin səhvən dişlənilməsi isə ölümlə nəticələnən fəsadlar yaradır. Buna görə ağacın olduğu bölgələrdə xüsusi təhlükəsizlik tədbirləri alınır, kimsənin zərər görməməsi üçün onun ətrafına xüsusi xəbərdarlıq işarələri və lövhələri yerləşdirilir.

**Müdriklər deyib ki...**



*«Elə yaşamalısan ki, öləndən sonra ölməyəsən».*
*Cəlil Məmmədquluzadə (1866-1932)*